№ 275 ISSN 1027-3875 15 oktyabr 2009

KHAZAR VIEW

XƏZƏR XƏBƏR



ELMİ-KÜTLƏVİ, BƏDİİ-PUBLİSİSTİK TOPLU

www.khazar.org

ELMİ-KÜTLƏVİ,
BƏDİİ-PUBLİSİSTİK
TOPLU

1995-ci ilin
yanvarından ayda 2 dəfə çıxır

Təsisçi:
XƏZƏR UNİVERSİTƏSİ

Baş redaktor:
Hamlet İSAXANLI

Baş redaktor müavini:
Əlirza BALAYEV

Redaksiya heyəti:
Camal MUSTAFAYEV
Tofiq ABASQULIYEV
Nurəddin RZAYEV
Cəmil HƏSƏNLİ
Bəhlul ABDULLA
Nizami CƏFƏROV
Əfqan ABDULLAYEV
İsmət ƏHMƏDOV

Rəssam:
Rafiq ƏBDÜLRƏHİMOV

Kompüter tərtibatçısı:
Emil MƏMMƏDOV
Fotomüxbir:
Könül ƏLİYEVA
Ünvanımız:
Bakı, Məhsəti küçəsi 11,
("Neftçilər" metrosunun yanı)
Faks: 498-93-79
Telefon: 421-79-16
421-10-93

Şəhadətnamə: 255
İndeks: 67178
Sifariş: 190
Tiraj: 3000

Müəlliflərlə
redaksiyanın mövqeyi
üst-üstə düşməyə bilər
Əlyazmalar geri qaytarılmır
Xəzər Universitəsi
mətbəəsində çap edilmişdir

SCIENTIFIC-POPULAR
LITERARY-PUBLICISTIC
COLLECTION

It has been publishing twice
a month since January, 1995

Founder:
KHAZAR UNIVERSITY

Editor-in-chief:
Hamlet ISAXANLI

Associate editor:
Alirza BALAYEV

Editorial member:
Jamal MUSTAFAYEV
Tofiq ABASQULIYEV
Nurəddin RZAYEV
Jamil HASANLI
Bahlul ABDULLA
Nizami JAFAROV
Afgan ABDULLAYEV
İsmat AHMADOV

Design by:
Rafig ABDULRAHIMOV

Computer graphics:
Emil MAMMADOV
Photoreporter:
Konul ALIYEVA

Address:
11 Mahsati str., Baku,
(near the "Neftchilar" metro)
Fax: 498-93-79
Phone: 421-79-16
421-10-93

Certificate: 255
Index: 67178
Order: 190
Copies: 3000

The opinions of authors
and editors
could be independent
Manuscripts are not returned
Published by
Khazar University Press

OXUYUN

Bu nömrədə



XƏZƏR UNİVERSİTƏSİNDƏ
27-ci MƏZUNLUQ MƏRASİMİ 4

İsaxan İsaxanlı 14
"ПРОЩАЙ, БАКУ"





ЛИКИЯ АЛИЕВОЙ 20



ВЗГЛЯД ИЗ ЛОНДОНА:
КОРОЛЕВА ЕЛИЗАВЕТА II 24

Cahangir Suraxanlı
AXUND 28
Sənədli hekayə



НОБЕЛЕВСКАЯ ПРЕМИЯ - 2009 32

USAQ DÜNYASI



36

UNİVERSİTƏ XƏBƏRLƏRİ

XƏZƏR UNİVERSİTƏSİNDƏ 27-ci MƏZUNLUQ MƏRASİMİ

Oktyabrın 3-də Xəzər Universitəsinin "Dünya" konsert salonunda həm bakalavr, həm də magistr proqramları üzrə 27-ci məzunluq mərasimi keçirildi.

Mərasimin aparıcıları – Humanitar və sosial elmlər fakültəsinin üçüncü kurs tələbələri Sevinc İsgəndərova və Orxan Abdullayev tədbiri açaraq, iştirakçılara müraciət etdilər:

– Əziz müəllimlər və hörmətli valideynlər! Və ömrün dönüş mərhələsini yaşayan məzunlar! Bu gün təqvimdə oktyabrın 3-dür və bəlkə də, çoxları üçün adi gündür. Amma "Xəzər"imiz üçün, bu doğma ocağa artıq "əlvida" deyən 221 məzunumuz üçün bu gün olduqca əlamətdardır və yaddaşlara həmişəlik həkk olunacaqdır. Sevindirici haldır ki, məzunlarımız arasında xarici ölkələrin vətəndaşları da vardır. Ümumiyyətlə, Xəzər Universitəsində İran, Nigeriya, Rusiya, Koreya, Yunanıstan, Latviya, Bolqarıstan, İraq, Pakistan, Amerika, Hindistan, Danimarka, Kanada, Norveç və Misirdən gəlmiş tələbələr təhsil almış və ya təhsil alırlar. Eyni zamanda, tələbələrimizin oxuduqları və Xəzər Universitəsinin adını həmişə yüksəkdə tutduqları ölkələrin də adını çəkə bilərik: Yunanıstan, Portuqaliya, İspaniya, Türkiyə, Norveç, Amerika, Çin, Yaponiya, İngiltərə, Polşa, Fransa və Gürcüstan.

Əziz məzunlar! Siz fəxr edə bilərsiniz ki, Azərbaycanın ən nüfuzlu ali məktəblərindən birində təhsil almısınız. Ümumiyyətlə, hər bir şəxsin seçdiyi ali məktəb onun həyatında çox böyük rol oynayır. Siz biliyinizin təkmilləşdirilməsini, dünyagörüşünüzün genişləndirilməsini, həyata baxışlarınızın dəyişdirilməsini "Xəzər"ə etibar etdiniz. "Xəzər"in də sizin bu etimadınızı doğrultduğunu hər birinizin simasından oxumaq mümkündür.

Əlbəttə, hamımızda böyük sevinc hissi var, hamımızın qəlbi xoş arzularla doludur. Ancaq nə qədər çalışsaq da, məzunlarımıza ürək sözlərimizi "Xəzər"imizin yaradıcısı kimi gözəl ifadə edə bilmərik. Səhnəyə Xəzər Universitəsinin rektoru, professor Hamlet İsaxanlını dəvət edirik.



HAMLET İSAXANLININ ÇIXIŞI

Əziz məzunlar, hörmətli valideynlər, hörmətli müəllimlər! Xəzər Universitəsi qısa zaman müddətində, yəni on beş il ərzində iyirmi yeddinci dəfədir ki, belə bir mərasim keçirir və öz məzunlarını təbrik edir, onlara uğurlar diləyir. Hər insanın övladı olduğu kimi, öz övladına qayğı göstərib onu boya-başa çatdırdığı kimi, Xəzər Universitəsinin də ali məktəb kimi məhsulu, barı var, bu, onun məzunlarıdır. Valideyn öz övladının həm əqli, həm fiziki cəhətdən yaxşı inkişaf etməsini, həyatda xoşbəxt olmasını istədiyi kimi, Xəzər Universitəsi də öz məzunları barədə bu cür düşünür, bütün proqramını, bütün işini bu istiqamətdə qurur. Çalışır ki, məzunları hər hansı bir ali məktəbin məzunlarından fərqlənsin, yaxşı mənada fərqlənsin. İlk növbədə çalışırıq ki, sizi, məzunlarımızı bir sahənin yaxşı mütəxəssisi kimi yetişdirək; elə bir mütəxəssis ki, təkcə Azərbaycanda deyil, dünyanın hər hansı bir ölkəsinə getsə də, işə düzələ bilsin. Yəni elə bir təhsil alsın ki, o, əyalət təhsili olmasın, ölkəyə xalis bağlı olan məhdud təhsil olmasın. Çalışırıq ki, insanlar dünyanın inkişaf etmiş ölkələrindəki universitetlərdə necə təhsil alırlarsa, burada da tələbələrimiz ona bənzər təhsil

alsınlar. Bu bizim birinci mühüm işimiz olubdur.

Əlbəttə, təkcə təhsillə, savadla iş bitmir. Xəzər Universitəsinin məqsədi odur ki, tələbələrin dünyagörüşünü mümkün qədər genişləndirsin, əhatəli formalaşdırsın; çünki dünyanı necə görmək, dünyanı necə dərk eləmək – bunlar bir-birilə bağlıdır və insanın həyat yolu, gələcəyi üçün bu çox vacibdir. Digər tərəfdən, Xəzər Universitəsinə ilk dəfə gələnlər on yeddi-on səkkiz yaşında gənclər olurlar və onlar ali məktəbi bitirib magistraturada, doktoranturada təhsil alanda da hələ gənclik dövrünü yaşayırlar. Buna görə də, xarakterlərinin müəyyən dərəcədə güclü formalaşmasına, bərkiməsinə, onların həyatın hər üzünə hazır olmasına və düzgün qərar qəbul etmə qabiliyyətlərini inkişaf etdirməyə çalışırıq.

Bundan başqa, təbii ki, tələbələr həyatlarının böyük hissəsini burada keçirirlər, bəlkə də evdən çox ali məktəbdə, "Xəzər"də olurlar. Ona görə də, onların həyatının maraqlı olması üçün də çox işlər görürük. Musiqi, incəsənət, idman, müxtəlif görüşlər və tədbirlər vasitəsilə onların asudə vaxtlarının mənalı keçməsinə çalışırıq.



Təbii ki, mən universitəmizdə hər şeyin ideal, mükəmməl olduğunu söyləmirəm. Dünyada ideal, mükəmməl heç nə yoxdur, sadəcə, ona doğru hərəkət var. Biz də həmişə ona doğru hərəkət edirik və ildənilə çalışırıq ki, əvvəlki ildə edə bilmədiyimizi növbəti ildə edək.

Mən ümid edirəm ki, universitə öz məzunlarını sevdiyi kimi, məzunlarımız da öz ali məktəblərini sevirlər və ömür boyu sevəcəklər, heç vaxt burdan əlagələrini kəsməyəcəklər. Məzunlarımız bir müddətdən sonra gəlib bizdə magistraturaya daxil olurlar,



yaxud xarici ölkələrə gedib təhsillərini davam etdirirlər, sonra qayıdıb bizdə dərs deyirlər, müəllim olurlar. Bu gün də bu salonda bizim keçmiz məzunlarımız – indiki müəllimlərimiz var. Elə hallar da olur ki, məzunlarımızın, məsələn doktoranturanı bitirən məzunlarımızın uşaqları gəlib tələbəmiz olurlar. Əlbəttə ki, sizin uşaqlarınızın gəlib tələbə olmalarına hələ çox var, siz hələ çox gəncsiniz. Amma ümüd edirik ki, siz də ailə quracaqsınız və uşaqlarınız bizim şöhrətli "Dünya" məktəbinə gələrək təhsil alacaq, sonra da Xəzər Universitəsinə üz tutacaqlar.

Mən sizin hamınıza uğurlar arzulayıram, həyatda nəyin arzusundasınızsa, onu əldə etməyi diləyirəm və istəyirəm ki, siz Xəzər Universitəsini heç vaxt unutmayasınız. Bizim sizə ehtiyacımız heç vaxt bitməyəcək. Məzunlarımız böyüdükcə, Xəzər Universitəsinə geri qayıtdıqca, onun uğurları ilə sevindikcə, onun inkişafında iştirak etdikcə biz güclü oluruq və biz gücləndikcə siz fəxr edirsiniz ki, "bəli, bu mənim universitetimdir". Sağolun, sizi məzun olmağınız münasibətilə təbrik edirəm.







Sonra diplomların təqdim olunması mərasimi başlandı. Aparıcılar səhnəyə məzunları və fakültə dekanlarını dəvət etdilər. Humanitar və sosial elmlər və Hüquq fakültələrinin dekanı Cabir Xəlilov, İqtisadiyyat və menecment fakültəsinin dekanı Məhəmməd Nuriyev, Memarlıq, mühəndislik və tətbiqi elmlər fakültəsinin dekanı Rafiq Əhmədov, Tibb, stomatologiya və ictimai səhiyyə fakültəsinin dekanı Nigar Bağırova və Təhsil fakültəsinin dekanı Elza Səmədova məzunlara diplom təqdim etdilər. Məzunlar Məzun və Hippokrat andlarını söyləyərək, Xəzər Universitəsində mənimsədikləri bilikləri bacarıqla tətbiq etməklə öz aileləri, vətən və xalq üçün faydalı insan olacaqlarına, Xəzər Universitəsinin şərəfini qoruyacaqlarına and içdilər. Onlar universitənin rəhbərliyi və öz müəllimləri ilə xatirə şəkilləri çəkdirdilər.

Mərasim Xəzər Universitəsinin mahnı və rəqs ansamblının konsert proqramı ilə başa çatdı.

"Xəzər Xəbər"







DÜNYA BANKININ MÜŞAVİRİ İLƏ FİKİR MÜBADİLƏSİ

Oktyabrın 2-də Xəzər Universitəsinin rektoru, professor Hamlet İsaxanlı Dünya Bankının ali təhsil üzrə müşaviri Dr. Saçi Hatakenakanı qəbul etdi. Azərbaycanda ali təhsil üzrə islahatlar və problemlər barədə fikir mübadiləsi aparıldı.

BAKIDA ALMAN UNİVERSİTETLƏRİNİN TƏHSİL YARMARKASI

Oktyabrın 1-də Xəzər Universitəsi Peşə İnkişaf Mərkəzinin müdiri Leyla Muradxanlı və mərkəzin əməkdaşları Təhsil Nazirliyi və Alman Akademik Mübadilə Xidməti (DAAD) tərəfindən "Azərbaycan-Almaniya ali təhsil günləri" çərçivəsində təşkil olunmuş Alman Universitetlərinin Təhsil Yarmarkasında iştirak etdilər. "Kapellhaus" Alman-Azərbaycan Mədəniyyət Cəmiyyətində təşkil olunan yarmarkada Almaniyanın Bonn Universiteti, Axen Ali Məktəbi, Zigen Universiteti, Potsdam Universiteti, Köln Universiteti kimi 20-dən artıq nüfuzlu universitetlər iştirak edirdilər.

Xəzər Universitəsinin əməkdaşları olaraq əsas məqsədimiz Almaniya ali təhsil sistemi və burada fəaliyyət göstərən çoxsaylı ali təhsil müəssisələri ilə yaxından tanış olmaq idi. Almaniyanın mühəndislik üzrə ən nüfuzlu universitetlərindən biri – Hochschule Regensburg Universitetinin vitse-prezidenti Dr. Holger Haldenwanf bizə geniş məlumat verdi. Peşə İnkişaf Mərkəzinin müdiri L. Muradxanlı Xəzər Universitəsi haqqında ətraflı danışaraq, universitəmizin xüsusən memarlıq, mühəndislik və tətbiqi elmlər sahəsində böyük uğurlara nail olduğunu bildirdi. Dr. Holger Haldenwanf və digər universitetlərin rəsmi nümayəndələri Xəzər Universitəsi ilə əməkdaşlıq etməkdə maraqlı olduqlarını bildirdilər.

Qeyd edək ki, "Azərbaycan-Almaniya ali təhsil günləri" çərçivəsində oktyabrın 2-3-də beynəlxalq konfrans da keçirilmişdir. Konfransda qeyd olunmuşdur ki, "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" çərçivəsində bu gün 70-dən çox azərbaycanlı gənc Almaniyanın ayrı-ayrı universitetlərində təhsil alır. Azərbaycanlı gənclərin iqtisadiyyat, tibb, kənd təsərrüfatı və digər sahələr üzrə təhsil almaq üçün həmin ölkəyə göndərilməsi prosesi davam etdiriləcəkdir.

DAAD-ın şimal bölməsinin baş direktoru Annette Julius təmsil etdiyi təşkilatın həyata keçirdiyi tədbirlərin uğurlu nəticələrini qeyd etmişdir. O, eyni zamanda, Almaniya ilə Azərbaycan arasında tələbə mübadiləsinin əhəmiyyətini vurğulamışdır.

Almaniyanın Bakıdakı səfiri Per Kristofer Stançina ölkələrimiz arasında təhsil əlaqələrinin səmərəli olduğunu qeyd etmiş və onun genişlənəcəyinə əminliyini bildirmişdir.

Almaniya universitetləri, tələbə mübadiləsi, təqaüd proqramları və Azərbaycanda alman kursları haqqında geniş məlumat almaq istəyənlər Peşə İnkişaf Mərkəzinə (211 nömrəli otaq) müraciət edə bilərlər.

Günel MUSTAFAYEVA,
Peşə İnkişaf Mərkəzinin əməkdaşı

ƏMƏKDAŞLIQ MƏSƏLƏLƏRİ MÜZAKİRƏ OLUNDU

Oktyabrın 6-da Xəzər Universitəsinin rektoru, professor Hamlet İsaxanlı və Neft Mühəndisliyi Departamenti müdirinin müavini Qəşəm Zeynalov Salyan Oil-də baş menecer Zhou Yun Zhung ilə görüşdülər. Görüşdə əməkdaşlıq məsələləri müzakirə olundu.

İRAN İSLAM RESPUBLİKASININ SƏFİRİ İLƏ REKTORLARIN GÖRÜŞÜ

Oktyabrın 8-da İran İslam Respublikası səfirliyinin Azərbaycanın universitet rəhbərləri üçün təşkil etdiyi ziyafətdə İran İslam Respublikasının və Azərbaycan Respublikasının elm və təhsil əlaqələri müzakirə olundu. Görüşdə Xəzər Universitəsinin rektoru, professor Hamlet İsaxanlı çıxış edib, əlaqələrin bu günündən və perspektivlərindən danışdı.

DÜNYA BANKININ NÜMAYƏNDƏLƏRİ İLƏ NÖVBƏTİ GÖRÜŞ



Oktyabrın 8-də Xəzər Universitəsinin rektoru, professor Hamlet İsaxanlı Dünya Bankının maliyyə idarəetmə məsləhətçisi John Fielden və ali təhsil üzrə baş mütəxəssis Riçard Hopperi qəbul etdi. Görüşdə Azərbaycan təhsil sistemindəki islahatlardan danışıldı.

"FORBES" JURNALININ ƏMƏKDAŞLARI İLƏ SÖHBƏT

Oktyabrın 9-da Xəzər Universitəsinin rektoru, professor Hamlet İsaxanlı "Forbes" jurnalının əməkdaşları Gergana Urdarevska, Lianna Plaut və Wael Rahmouni ilə görüşmüşdür. Görüşdə Azərbaycanın təhsil sistemindəki islahatlar və Xəzər Universitəsinin ali təhsil sistemindəki rolu ilə bağlı məsələlər müzakirə olunmuşdur.

"AZƏRBAYCANDA TƏHSİL SEKTORUNUN VƏ BİZNESİN QARŞILIQLI ƏLAQƏLƏRİNİN İNKİŞAF PERSPEKTİVLƏRİ"

Oktyabrın 14-də Azərbaycan - Türkiyə İş Adamları Birliyində "Azərbaycanda təhsil sektorunun və biznesin qarşılıqlı əlaqələrinin inkişaf perspektivləri" mövzusunda hazırlanmış tədqiqatın ictimai müzakirəsi təşkil edilmişdir.

Layihənin əsas məqsədi Azərbaycanda mövcud təhsil sisteminin vəziyyətini ətraflı qiymətləndirmək, üstün və çatışmayan cəhətlərinə nəzər yetirmək, inkişaf meyllərini nəzərə almaqla onu təkmilləşdirmək, həmçinin biznesle qarşılıqlı əməkdaşlığı istiqamətində tövsiyələr irəli sürməkdən ibarətdir.

Müzakirələrdə Xəzər Universitəsinin rektoru, professor Hamlet İsaxanlı və universitənin bir qrup əməkdaşı – İqtisadi və Biznes Tədqiqatlarılar və Təhsil Mərkəzinin direktoru Fuat Rəsulov, Kompüter Elmləri Departamentinin müdiri Leyla Muradxanlı və Beynəlxalq Tələbələr və Mütəxəssislər Şöbəsinin əməkdaşı Aytən Şadlinskaya iştirak etmişlər.

TƏLƏBƏ QƏBULU QAYDALARINDA YENİLİK

ABİTURİYENTLƏR XARİCİ DİL KİMİ RUS DİLİNİ DƏ SEÇƏ BİLƏRLƏR

GƏLƏN İLDƏN I, II VƏ III İXTİSAS QRUPLARINDA BÜTÜN XARİCİ DİL FƏNLƏRİ ÜZRƏ NİSBİ BAL MƏHDUDİYYƏTİ TƏTBİQ EDİLƏCƏK

Tələbə Qəbulu üzrə Dövlət Komissiyası ali məktəblərə tələbə qəbulu qaydalarına dəyişiklik edib. Bu dəyişikliklərdən biri abituriyentlərin xarici dil kimi seçdiyi fənlərlə bağlıdır. Digəri isə bəzi ixtisaslarda xarici dil fənləri üzrə nisbi bal məhdudiyyətinin tətbiq dairəsinin genişləndirilməsini nəzərdə tutur.

2010-2011-ci tədris ili üçün ali məktəblərə keçirilən qəbul imtahanlarında xarici dil fənni kimi I və II ixtisas qruplarında ingilis, alman, fransız , rus, III ixtisas qrupunda isə ingilis, alman, fransız, rus, ərəb və fars dilləri nəzərdə tutulmuşdur. I, II və III ixtisas qruplarında bütün xarici dil fənləri üzrə nisbi bal məhdudiyyəti tətbiq ediləcək.

Indiyədək II və III ixtisas qruplarında imtahan verən abituriyentlərə xarici dil kimi rus dilini seçmək hüququ verilmirdi. Lakin göründüyü kimi, növbəti qəbul imtahanlarında həmin qruplar üzrə ixtisaslara sənəd verən abituriyentlər xarici dil kimi rus dilini də seçə bilərlər.

REGİON ÖLKƏLƏRİ AZƏRBAYCANIN TƏCRÜBƏSİNİ ÖYRƏNİRLƏR



Qırğızıstanın Issıkköl şəhərində *Mədən Hasilatında Şəffaflıq Təşəbbüsü (MHŞT)* ilə bağlı "Şəffaflıq təşəbbüşünün gerçekləşməsi: problemlər və perspektivlər" mövzusunda beynəlxalq konfrans keçirilib. Konfransda Xəzər Universitəsinin professoru, İqtisadi və Biznes Tədqiqatlar və Təhsil Mərkəzinin direktoru Fuat Rəsulov əsas məruzəçilərdən biri kimi iştirak edib. Müxbirimizlə söhbətində o, konfrans haqqında ətraflı məlumat vermişdir.

– Fuat müəllim, məlum olduğu kimi, fevral ayında Qətərin paytaxtı Doha şəhərində keçirilən Mədən Hasilatında Şəffaflıq Təşəbbüsü (MHŞT) üzrə 4–cü Beynəlxalq Konfransda dünyada birinci olaraq Azərbaycanın bu təşkilatda üzvlük statusu təsdiq edilib. Bu nə deməkdir?

- Əvvəlcə MHŞT haqqında oxucularaməlumat vermək istərdim. Məlum olduğu kimi, MHŞT (Extractive Industry Transparency Initiative – EITI) 2002-ci ilin sentyabr ayında Yohannesburq şəhərində keçirilmiş Davamlı İnkişaf üzrə Dünya Sammitində Böyük Britaniyanın Baş Naziri Tony Bleyer tərəfindən irəli sürülmüşdür. Təşəbbüsün məqsədi təbii ehtiyatlarla zəngin və iqtisadiyyatı belə ehtiyatlardan asılı olan ölkələrin mədən sənayesində ödəmələr və gəlirlər üzərində şəffaflığın artırılmasıdır. Bu təşəbbüs hökumətləri, mədən sənayesində çalışan bütün şirkətləri (özəl və ya dövlət mülkiyyətində olmasından asılı olmayaraq), beynəlxalq təşkilatları və vətəndaş cəmiyyətini könüllülük əsasında ödəmələr və gəlirlərin şəffaflığını artırmaq üçün birgə çalışmağa sövq edir.

Təşəbbüsə qoşulan hər bir ölkədə MHŞT-nin aşağıdakı baza tələbləri yerinə yetirilməlidir:

- Neft, qaz və digər təbii ehtiyatların hasilatı ilə məşğul olan şirkətlər hökumətə bütün ödənişlərini dövri olaraq açıqlayır;
- Hökumət neft, qaz və digər təbii ehtiyatların hasilatı ilə məşğul olan şirkətlərin ona təqdim etdiyi bütün ödənişlər barədə hesabatı eyni dövriliklə açıqlayır;
- Müstəqil auditor (3-cü tərəf) bu hesabatları tutuşdurur;
- Bəyan edilmiş bütün ödənişlər və tutuşdurulmanın nəticələri (uyğunsuzluqları da əhatə etməklə) müntəzəm dərc edilməklə geniş ictimaiyyətə açıqlanır.

MHŞT-yə qoşulmuş hər bir ölkədə prosesin gedişinin qiymətləndirilməsi üçün Beynəlxalq EİTİ İdarə Heyəti tərəfindən 20 indikator (göstərici) işlənilib. Bunlardan 18-i MHŞT prosesinin 4 mərhələsinin ayrı-ayrı məsələlərini əhatə edir. Qiymətləndirici bu indikatorlar üzrə MHŞT-yə qoşulan maraqlı tərəflərin (hökumət, şirkətlər və vətəndaş cəmiyyətinin) mövqelərini və arqumentlərini onlarla müsahibə yolu ilə bilavasitə öyrənir və bunun əsasında qərar qəbul edir. Digər 2 indikator isə prosesin gedişinin ümumi qiymətləndirilməsini nəzərdə tutur. Bu indikatorlar üzrə yekun qərarlar işin ümumi gedişi və toplanan arqumentlər əsasında qiymətləndiricinin gəldiyi qənaətə əsaslanır.

Qeyd olunduğu kimi, 18 indikator prosesin bütün 4 mərhələsini – MHŞT-yə qoşulma, MHŞT-yə hazırlıq, hesabatların auditi (tutuşdurulması) və nəticələrin yayımlanmasını əhatə edir.

Azərbaycana "üzv ölkə" statusunun verilməsinə gəldikdə, bu, kifayət qədər ciddi və beynəlxalq arenada ölkənin müsbət imicinin formalaşmasına xidmət edən bir hadisədir. Azərbaycan böyük neft gəlirlərinə malik bir ölkə kimi belə gəlirlərin şəffaflığının təmin edilməsində maraqlı olduğunu, buna çalışdığını və nail olduğunu bütün dünyaya nümayiş etdirir. Bu həm beynəlxalq maliyyə qurumları, həm də Qərbin biznes dairələri və investorlar üçün maraq doğuran bir məsələdir.

Eyni zamanda, birinci ölkə olaraq "üzv ölkə" statusu almış Azərbaycanın təcrübəsinin öyrənilməsinə digər namizəd ölkələrin və onların vətəndaş cəmiyyətlərinin marağı artıb. Ölkəmizin bu sahədəki təcrübəsindən ciddi bir nümunə kimi istifadə oluna bilər.

- Konfransda hansı məsələlər müzakirə olundu? Bu barədə məlumat verərdiniz...

– Konfransda bizdən başqa Qırğızıstan, Qazaxıs-

tan, Tacikistan, Monqolustan və İngiltərənin nümayəndələri qatılmışdı. Tacikistandan ancaq dövlət qurumlarının təmsilçiləri gəlmişdi.

Konfrans iştirakçıları bizdən daha çox məlumat almaq, bunun da nəticəsində ümumən MHŞT prosesilə bağlı özləri üçün aydın təsəvvürlər yaratmağa çalışırdılar. Məsələ bundadır ki, Orta Asiya ölkələrində QHT-lərin durumu və çəkisi Azərbaycanla müqayəsədə bir qədər fərqlidir. Bunu həmin ölkələri təmsil edənlər də açıq etiraf edirdilər ki, Azərbaycanda QHT sektorunda çalışan insanların əksəriyyəti ziyalılardır, alimlərdir. Amma həmin ölkələrdə belə deyil. Bax, bu da onlar üçün problemdir.

Qırğızıstan bu konfransa qədər validasiya ilə bağlı bəyanat da verməmişdi. Bu ölkənin təmsilçiləri, məlumatları o qədər də geniş deyildi deyə, bu prosesdən az qala qorxurdular. Qırğızıstandakı qeyri-hökumət təşkilatları arasında bu məsələlərlə bağlı fikir ayrılığı var.

Konfransın birinci günü MHŞT Katibliyinin Londondan gəlmiş nümayəndələri məruzə ilə çıxış etdilər. Sonra söz Azərbaycana verildi və mən də əvvəlcə öz təcrübəmizdən, keçdiyimiz mərhələlərdən, hazırda hansı məsələlər ətrafında müzakirələr aparmağımızdan, hansı problemlərlə üzləşməyimizdən, prioritetlərimizin nədən ibarət olmasından və s. bu kimi məsələlərdən geniş açıqlamalar verdim.

Konfransın ikinci günündə müzakirələr yalnız validasiya prosesini əhatə etdi. Əvvəlcə konfrans iştirakçılarına ümumi məlumat verildi. Sonra mən bu mövzuda məruzə etdim, bütün detallara, prinsiplərə ayrıca olaraq toxundum. Çıxışımda əsasən öz təcrübəmizə əsasladığımdan, Azərbaycanda vətəndaş cəmiyyətinin mövqeyindən, validasiya prosesindən öncə müzakirəyə çıxardığımız məsələlərdən ətraflı şəkildə bəhs etdim.

Tədbirin üçüncü günü dövlət komissiyasının, şirkətlərin nümayəndələrinin iştirakı ilə fikir mübadiləsi apardıq. Biz də öz növbəmizdə Azərbaycanda MHŞT ilə bağlı hazırkı vəziyyət, Çoxtərəfli Qrupun yaradılması istiqamətində göstərdiyimiz cəhdlər, oktyabrda keçiriləcək Bakı konfransı barədə ətraflı məlumat verdik. Elə bütün bu müzakirələrin nəticəsi olaraq Qırğızıstan təmsilçiləri – dövlət qurumları və QHT təmsilçilərinin iştirakı ilə səsvermə keçirildi və onlar validasiyaya hazırlaşmağa başladıqlarını bəyan etdilər. Konfransın müsbət nəticəsi də elə bu oldu. Maraqlı görüşlər də keçirdik. Məsələn, Tacikistanın təmsilçiləri bizə müraciət etdilər ki, ayrıca görüş keçirmək istəyirlər. Bir saatlıq görüşdə biz onlara Azərbaycan təcrübəsi ilə bağlı ətraflı bilgilər verdik. Ümumiyyətlə, konfrans mədən hasilatında şəffaflıq sahəsində əhəmiyyətli bir tədbir oldu.




UNİVERSİTƏMİZİN YENİ NƏŞRLƏRİ

TİBB TƏLƏBƏLƏRİMİZƏ YENİ DƏRSLİK TÖHFƏSİ

Ali məktəblərdə dərslərin keyfiyyətinə və səviyyəsinə təsir edən ən mühüm amillərdən biri müasir standartlara cavab verən dərsliklərin olmamasıdır. Sovetlər dövründə bu məsələ mərkəzləşdirilmişdi və ali məktəblər üçün dərsliklərin yazılması və nəşri planlı surətdə həyata keçirilirdi. Dərsliklər yüksək səviyyəli və təcrübəli ixtisasçı pedaqoqlar tərəfindən yazılırdı. Çox az miqdarda alternativ dərsliklərə rast gəlmək olurdu. Lakin sovet sistemi dağıldıqdan sonra müstəqillik qazanan respublikaların, o cümlədən də bizim ölkəmizin ali məktəblərində milli dildə dərsliklərə böyük ehtiyac yarandı. Bu ehtiyacı müxtəlif ali məktəblərimiz müxtəlif yollarla aradan qaldırmağa cəhd etdilər. Onların əksəriyyəti dərsliklərin müxtəlif dillərdən (xüsusilə rus dilindən) tərcümə olunmuş variantlarına üstünlük verdilər. Bəziləri isə fundamental köhnə dərslikləri latın əlifbası ilə yenidən nəşr etdirməklə kifayətləndilər. Bunun əsas səbəbi ali məktəblərimizdə dərslik yazmaq ənənəsinin, bu sahədə alim pedaqoqlarımızın təcrübəsinin az olması və maliyə çatışmazlığı idi.

Lakin son illərdə ali məktəblər üçün yeni dərsliklərin yazılmasına və nəşrinə xüsusi diqqət yaranmışdır. Bu məsələ həm təhsil nazirliyinin, həm də universitetlərimizin səyi nəticəsində intensivləşmişdir. Yüksək səviyyəli, müasir standartlara cavab verə bilən dərsliklər yazmağı bacaran, təcrübəli alimlərimiz yetişmişdir. Belə alimlərimizdən biri uzun illərdir Xəzər Universitəsində anatomiya fənnindən mühazirələr oxuyan, praktik dərsləri yüksək peşəkarlıqla həyata keçirən və tələbələrimizin sevimli müəllimi olan Elçin Əkbərovdur. Onun həm ingilis və həm də Azərbaycan dilində yazdığı "İnsan anatomoyası" dərslikləri tibb tələbələrimiz üçün əsl töhfədir. Anatomiya dərsliyi tibb universitetləri üçün ən vacib olan dərslikdir. İndi dünyanın bütün universitetlərində bu dərsliyə diqqət son dərəcə yüksəkdir. Müasir elektron kitabxanalar yaransa da, anatomiya dərsliklərinin çox müxtəlif formaları yazılsa da, bu dərsliyə ehtiyac həmişə hiss edilir.

Elçin Əkbərov yeni dərsliklərində ənənəvi üsuldan istifadə edərək, ən mühüm olan üç məsələni ön plana çəkmişdir. Birincisi, dərsliklərin dili səlis və lakonikdir, anatomik terminlər asan qavranılır və yadda qalandır. İkincisi, anatomik şəkillər yüksək dəqiqliklə verilmişdir və onların üzərində işləməklə tələbələr geniş məlumat əldə etmək imkanına malik olacaqlar. Üçüncüsü, anatomiya elminin ən son nailiyyətləri dərsliklərdə nəzərə alınmışdır. Bu, tibb yönümlü ixtisaslara aid olan dərsliklər üçün çox vacib olan bir məsələdir. Dünya praktikasında çalışırlar ki, tibb tələbələri həmişə yeni dərsliklərdən istifadə etsinlər. Odur ki, kitabxanaların aktiv oxu zalında tibbə aid kitablar ən azı hər beş ildən bir tamamilə yeniləşdirilir.



Xəzər Universitəsi Nəşriyyatı tərəfindən işıq üzü görmüş "İnsan anatomiyası" dərslikləri Elçin Əkbərovun müəllifi olduğu digər dərsliklərdən xüsusilə fərqlənir. Bu dərsliklər onun dərslik yazmaq sahəsində yüksək peşəkarlığını sübut edir. Əminik ki, bundan sonra da Elçin Əkbərov yeni dərslikləri ilə respublikamızın tibb tələbələrini sevindirəcək. Bu sahədə ona uğurlar arzu edirik!

Dos. İsmət ƏHMƏDOV,
Xəzər Universitəsi Bioloji elmlər departamentinin müdiri

ВОЗМОЖНОСТЬ ПОЛУЧИТЬ БОЛЬШУЮ ПРИБЫЛЬ С НЕЗНАЧИТЕЛЬНЫМ РИСКОМ СПОСОБСТВУЕТ КИБЕРПРЕСТУПНОСТИ

Киберпреступником можно стать без особых затрат. За 500 долларов можно приобрести MPack – созданную российскими хакерами компьютерную программу, которая делает доступными данные кредитных карточек или электронных ваучеров, отправляемых фирмами розничной торговли. Аренда перепрограммируемых роботов под названием "бот-сети", пачками выдающих "спам" (массовые коммерческие или массовые электронные почтовые отправления, рассылаемые без просьбы адресатов) приносит 7700 долларов чистой прибыли в неделю, сообщает Питер Герра из компании цифровой безопасности Black Hat. Киберпреступность выгодна потому, что из-за несовершенства национального и международного законодательства правоохранительным органам трудно бороться с преступниками. Картик Каннан с факультета управления им. Краннерта в Университете Пердью указывает, что непрерывно возрастающая роль компьютерных сетей в деятельности коммерческих предприятий и государственных учреждений, а также в жизни частных граждан, создает все новые возможности для киберпреступлений, а их высокая доходность в сочетании с низким уровнем риска притягивает растущее число кибербанд.

По данным Центра приема жалоб о преступлениях в интернете, частногосударственной научно-исследовательской организации, в 2008 году число сетевых преступлений достигло в США рекордной величины – 27 000. Центр подсчитал, что денежный ущерб от мошеннических операций в интернете в указанном году составил 265 миллионов долларов.

Во что обходятся кибератаки

По мнению специалистов, многие руководители корпораций недооценивают серьезность киберугроз. Исследования показывают, что популярность интернета резко возрастает, а между тем законодательные акты, нормативные документы и правила не поспевают за ростом преступности.

Исследование, проведенное в 2009 году по заказу фирмы McAfee, разработчика средств компьютерной безопасности, показало, что в промышленно развитых странах компании обычно принимают меры к укреплению своих систем киберзащиты только после того, как органы регулирования выпускают соответствующие правила. Менее трети американских фирм стремятся внедрять передовой опыт в области безопасности в интернете, остальные не видят связи между кибербезопасностью и эффективностью управления.

Точно определить размеры финансового ущерба действительно нелегко. Брюс Шнайер, основатель и директор по технологиям компании Counterpane, работающей в области компьютерной безопасности, отмечает, что убытки небольшой фирмы от сравнительного мелкомасштабного заражения вредоносным программным кодом могут достигать 83 000 долларов в год. "Чем крупнее компания и чем глубже заражение, тем больше ущерб", - написал он в докладе от 2005 года.

В среднем затраты компании, связанные с киберпреступлениями, составляют более полмиллиона долларов в год, сообщает консультант по вопросам менеджмента Кевин Колман. В опубликованном в 2007 году докладе Управления по контролю за деятельностью государственных учреждений (GAO) суммарные годовые убытки американского частного сектора от кибератак оцениваются более чем в 117,5 миллиарда долларов. Но многие специалисты утверждают, что это лишь верхушка айсберга.

Скотт Борг, основатель и руководитель независимой научно-исследовательской организации U.S. Cyber Consequences Unit, сообщил, что экономический ущерб от хищения жизненно важной корпоративной информации "значительно превышает... убытки вследствие мошеннических операций с кредитными карточками, которые, между прочим, довольно велики". С другой стороны, отмечает он, многие утверждения об ущербе вследствие кибератак, в особенности вызывающих отказ в обслуживании законных пользователей, сильно преувеличены.

Киберпреступность также наносит неосязаемый ущерб деловой репутации и приводит к потере доверия клиентов. Некоторые киберинциденты месяцами остаются незамеченными и даже после того, как их обнаружат, покрываются техническим персоналом или руководителями компании, стремящимися уклониться от ответственности. Все более разбирающиеся в том, что представляет особую ценность, киберпреступники стремятся заполучить информацию, которая является залогом конкурентоспособности частных компаний.

Международная консалтинговая фирма Deloitte & Touche LLP оценивает глобальные убытки частного сектора вследствие сетевых краж интеллектуальной собственности приблизительно в один триллион долларов. В докладе компании McAfee отмечается, насколько трудно дать количественную оценку ослабления конкурентоспособности пострадавшей от киберпреступности компании, ввиду того, что сокращение ее доли на рынке может произойти через нескольких лет.

Укрепление киберзащиты

Система киберзащиты не обязательно должна стоить большие деньги. Глава отдела информационной безопасности Центрального разведывательного управления Роберт Бигман заявил на конференции в 2008 году, что от 80 до 90 процентов кибератак можно предотвратить благодаря "должной осмотрительности".

Задача защиты от кибератак усложняется растущими масштабами заражения государственных компьютерных систем вредоносными программными кодами. Министерство внутренней безопасности в 2008 году зарегистрировало 5499 подобных инцидентов – на 40 процентов больше, чем в предыдущем году. Заместитель министра обороны Уильям Линн сообщает, что за первое полугодие 2008 года его министерство израсходовало свыше 100 миллионов долларов на защиту своих компьютерных сетей.

Еще одна опасность связана с вероятностью кибератак на критически важные элементы инфраструктуры. Скотт Борг оценивает потенциальный ущерб от кибератаки, которая на три месяца выведет из строя энергосистему, обеспечивающую электроэнергией треть страны, приблизительно в 800 миллиардов долларов. А если учесть средства, которые потребуются на ликвидацию последствий подобной аварии, включая расходы на восстановление и повторный пуск генерирующих мощностей, а также на покрытие потерь электроэнергии, ущерб выразится куда более высокой суммой – около 3 триллионов долларов, добавил он.

Глобальный экономический кризис может ослабить существующие системы защиты. Урезание расходов на системы сетевой безопасности и увольнения сотрудников отрицательно скажутся на состоянии защитных сетей, создавая благоприятную почву для киберпреступности, которой могут заняться оказавшиеся без работы программисты, сказал Борг.

Распространено Бюро международных информационных программ Государственного департамента США.

Киберпреступность растет, хакеры становятся все более искусными

Хакеры, раньше считавшиеся безвредными интеллектуальными проказниками, представляют сейчас все более грозную опасность для общества, поскольку их умение взламывать электронные системы переходит в арсенал уголовных преступников, действующих в корыстных целях. К такому заключению пришли на основании своих исследований двое британских ученых.

"Эта тенденция проявилась в последние два-три года, хотя о ее существовании подозревали и раньше", – сказал в интервью веб-сайту America.gov Тим Джордан, профессор социологии британского Открытого университета и автор книги "Хакинг".

В 1998 году он и другой английский ученый – Пол Тэйлор, ныне преподающий в университете Лидса – опубликовали статью под названием "Социология хакинга" с анализом таинственного подпольного мира компьютерного хулиганства. "Вторжения в компьютеры – дело рук не случайных фанатиков-одиночек, а целого сообщества, наладившего сети взаимной поддержки", – говорится в статье.

Обитатели этого подполья одержимы стремлением проникнуть в тайны компьютеров и информационных систем, видя себя в роли бунтарей, бросающих вызов господствующим социальным и культурным общественным нормам, утверждают Джордан и Тэйлор. Хакеров-одиночек редко привлекает перспектива наживы, их возбуждает азарт преодоления защитных систем. Но главным стимулом для них является чувство всесилия, проистекающее от сознания своей способности взламывать сложные компьютерные системы, а также от признания со стороны других хакеров. Им необходима завеса тайны ввиду противозаконного характера их деятельности, но в то же время им нужна реклама, чтобы хвастаться своими достижениями, утверждают авторы статьи.

В интервью America.gov Тим Джордан сказал, что хакеры образца 2009 года мало чем отличаются от своих предшественников десятилетней давности, хотя большинство из них еще глубже ушли в подполье.

Но что изменилось – так это отношение общества, которое ныне проявляет куда меньше терпимости к компьютерному хулиганству, сказал в интервью Тэйлор. На заре компьютерной эры, в 1970-е и 1980-е годы прошлого столетия, ЭВМ-мэйнфреймы занимали по несколько помещений. Хакингом обычно занимались студенты, которые по ночам проникали в вычислительные центры, чтобы получить доступ к компьютерам для отработки навыков.

Сегодня же хакинг воспринимается куда более враждебно, ибо компьютеры и информационная технология стали неотъемлемой частью жизни общества.

"То, с чем еще можно мириться в университете с его относительно автономной средой, с переходом на более высокий уровень внезапно становится совершенно нетерпимым, хотя суть проступка остается прежней, – говорит Тэйлор. – Учитывая взаимосвязанный характер компьютерных систем, как только кто-нибудь взламывает одну из них, немедленно возникает острая необходимость установить, куда именно удалось прорваться хулиганам. А это порождает паранойю".

Тем временем масштабы киберпреступности растут. Министерство финансов США зарегистрировало за период с 1996 года свыше 53 000 случаев электронного мошенничества в интернете, причем почти половина из них приходится на последние два года. Джордан и Тэйлор предупреждают, что наличие процветающего хакерского сообщества предвещает лавину новых хитроумных атак на системы компьютерной безопасности.

"ПРОЩАЙ, БАКУ"



S.Yesenin və V.Boldovkin
Bakı, 24 may 1925-ci il

Я готов покляться чистым сердцем,
Что фонари прекрасней звезд в Баку.

Serqey Yesenin

Oktyabr ayının 3-də dahi rus şairi Serqey Yeseninin anadan olmasının 114 ili tamam oldu. Cəmi 30 il yaşadı Yesenin bu həyatda. Lakin böyük bir sevgi səltənəti qoyub getdi poeziyasevərlərə. Yesenin sevgi poeziyasının sehrinə düşmüş hər kəsə, bu sevgi poeziyası qədər incə, zərif məhəbbət dolu ömür arzulayıram.

"Прощай, Баку" şeiri də sevgiylə doludur. Bakıya, Azərbaycana sevgiylə.

Yeseninin V.İ. Boldovkinə[1] həsr etdiyi məşhur "Прощай, Баку" şeiri onun Bakını tərk etdiyi gün – "Bakinski raboçi" qəzetinin 25 may 1925-ci il tarixli 115-ci sayında dərc edilmişdi. V.İ. Boldovkin həmin günü belə xatırlayır:

... O, (*S.Yesenin*– **İ.İsaxanlı**) Balaxanıda 1 mayı necə keçirdiyindən, neftçilərin onu necə isti qarşılamalarından coşqunluqla danışır və Bakıdan ayrıldığına çox təəssüf edirdi.

– Amma tezliklə, yayda mən yenidən buraya, Mərdəkana, Pyotr İvanoviçin bağına gələcəm...

Serqey yazı stolunun arxasında oturmuşdu. Mətbədən zəng etdilər, telefonda metranpaj Kaçurin idi.

– Kim? Vasya? Kaçurin? Mənəm, Serqey, Pyotr (*P.İ.Çaqin* – **İ.İsaxanlı**) orada tezmi azad olacaq? Artıq səhifələyiblər? Pyotra de ki, "Əlvida, Bakı"nı mən Vasili İvanoviç Boldovkinə ithaf edirəm. Allo, Pyotr? "Əlvida, Bakı"nı mən Vasiliyə ithaf edirəm, xahiş edirəm, çap edəsiniz. Vaxtında demişəm? Yarım saatdan sonra gec olardı?

Heç eybi yoxdur, qoy Kaçurin inciməsin, mütləq kimə ithaf edildiyini yazın. Gözləyirik.

Gecə saat 2 radələrində qardaşım və Kaçurin gəldilər. Kaçurin əlində 1925-ci il 25 may tarixli qəzetin təzə, hələ boya iyisi gələn nümunəsini tutmuşdu.

Serqey "Əlvida, Bakı"nı oxumağa başladı və məni möhkəm-möhkəm öpdü.

– Yaxşı, mən bunu sənə həsr edirəm. Amma heyif ki, Moskvaya birlikdə getmirik.

Həmin gecə Serqey hamını heyran etmişdi. Biz gecəni, işıqlaşana kimi dördümüz bir yerdə olduq. Və mən bütün işlərimi atıb Serqeylə Moskvaya getmək qərarına gəldim. Qərara alındı – həll etdik. Beləliklə, "Əlvida, Bakı", amma dost başı ilə yola salmır,[2] Serqeylə birlikdə gedir.

Həmin gecə Serqey müstəsna bir əhvali-ruhiyyədə idi. Dilindən bədahətən çoxlu şeirlər süzülürdü. O çox sevinirdi ki, məni özü ilə birlikdə Moskvaya getməyə razı salmışdı...

1925-ci il, may ayının 25-i, səhər. Bakı – Moskva qatarı saat 13.00-da yola düşür...

Xüsusi bir rahatlıq hiss edirəm – vaqondayıq, baş bələdçinin fiti eşidilir, parovoz uğuldayır, qatar yavaş-yavaş perrondan uzaqlaşır. Serqey əl eyləyənlərə cavab verir:

- «Прощай, Баку»[3]

Yesenin, ona böyük məhəbbətlə qollarını açmış Bakıya dərin sevgisini "Прощай, Баку" şeirində ifadə etmişdir. Şeir orijinalda belədir:

---

[1] *Yeseninin yaxın dostu, Azərbaycan KP MK-nın ikinci katibi, "Bakinski raboçi" qəzetinin baş redaktoru P.İ.Çaqinin kiçik qardaşıdır. V.İ. Boldovkin o vaxtlar SSRİ-nin Tehrandakı səfirliyində diplomatik poçt xidmətində işləyirdi.*

[2] *"Əlvida, Bakı" şeirinin son beytinə işarədir.*

[3] *В.И.Болдовкин. Воспоминания о Есенине. http://esenin.niv.ru/esenin/ boldovkin.htm*

Прощай, Баку! Тебя я не увижу.
Теперь в душе печаль, теперь в душе испуг.
И сердце под рукой теперь, больней и ближе,
И чувствую сильней простое слово: друг.

Прощай, Баку! Синь тюркская, прощай!
Хладеет кровь, ослабевают силы.
Но донесу, как счастье, до могилы
И волны Каспия, и балаханский май.

Прощай, Баку! Прощай, как песнь простая!
В последний раз я друга обниму...
Чтоб голова его, как роза золотая,
Кивала нежно мне в сиреневом дыму.[4]

«Прощай, Баку» şeiri Yeseninin Azərbaycan dilinə sayca ən çox tərcümə edilən ikinci şeiridir.[5] Şeirin Azərbaycan dilinə tərcüməsindən bəhs edən ilk yazılı mənbələrdə[6] şeirin ilk dəfə Rəfiq Zəka tərəfindən tərcümə edildiyi qeyd olunur. Lakin tədqiqatçılar bu şeirin Rəfiq Zəkadan 9 il əvvəl Ələkbər Ziyatay tərəfindən tərcüməsinin varlığını unutmuşlar. Ələkbər Ziyatay 1955-ci ildə Yeseninin anadan olmasının 60 illiyi münasibətilə «Прощай, Баку» şeirini tərcümə etmişdir və həmin şeir "Rus şairləri Azərbaycan haqqında" adlı tərcümələr toplusunda dərc olunmuşdur.[7] Ümumiyyətlə, «Прощай, Баку» şeiri 7 müəllif – Ələkbər Ziyatay (1955), Rəfiq Zəka (1964), Əhməd Cəmil (1974), Əliağa Kürçaylı (1975), Knyaz Aslan (2005), Firuz Mustafa (2005), Eldar Nəsibli Sibirel (2006) tərəfindən tərcümə edilmişdir.

İndi şeirin mövcud tərcümələrinin təhlilini verməyə çalışacağıq.

ƏLƏKBƏR ZİYATAYIN TƏRCÜMƏSİ:

Əziz Bakı, əlvida! Son görüşdür, əlvida!
Bir həyəcan, bir kədər könlümü etmiş vətən.
Ürəyim narahatdır bu ayrılıq çağında,
Adi dostluq sözünü hiss edirəm dərindən.

Ey Azər övladının yurd-yuvası, əlvida!
Damarımda qan donur, gücdən düşür qollarım.
Ən xoş anlarım kimi çıxmaz yadımdan amma,
Xəzər dalğalarıyla, Balaxanı baharı.

Salamat qal, ey Bakı! Sən sadə bir nəğməsən,
Son dəfə öz dostumu qoy bağrıma basım, qoy!
İstərəm yasəməni tüstülərin içindən
Qızıl gül tək başını üzümə tərpətsin o![8]

Ələkbər Ziyatayın tərcüməsini kifayət qədər uğurlu hesab etmək olar. Tərcüməçi şeirin ruhunu düzgün tuta bilmiş, orijinala maksimum sadiqlik göstərməyə çalışmış, ayrılıq anında müəllifin keçirdiyi hissləri tərcüməyə hopdura bilmişdir. Xüsusi olaraq qeyd etməyə dəyər ki, Ələkbər Ziyatay şeirin son beytini orijinala tam uyğun olaraq dəqiq və şairanə ifadə etməyə nail olmuşdur:

İstərəm yasəməni tüstülərin içindən
Qızıl gül tək başını üzümə tərpətsin o!

Bununla belə, tərcümədə 3 məqamı qeyd etmək istəyirik.

Orijinalda hər bənd vahid "Əlvida, Bakı" ilə başlasa da, tərcümədə bu ifadə hər dəfə başqa cür verilmiş və bu da şeirin özünəməxsus formasına və səslənməsinə xələl gətirir. Qeyd edək ki, Ələkbər Ziyatay və Əhməd Cəmildən başqa bütün tərcüməçilər bu formanı saxlamışlar.

Tərcüməçi orijinaldakı "Прощай, Баку! Синь тюркская, прощай! " misrasını "Ey Azər övladının yurd-yuvası, əlvida!" kimi tərcümə etmişdir. Özözlüyündə misranı uğursuz hesab etmək olmaz. Lakin bu tərcümənin şeirin ilk tərcüməsi olduğunu nəzərə alsaq, qeyd etməliyik ki, tərcümədə "səma", "göy", "üfüq" kimi təbii bir ifadənin yer almaması uğursuzluq hesab edilməlidir.

İkinci bəndin son misrasında olan "балаханский май" ifadəsinin "Balaxanı baharı" kimi verilməsi də qənaətbəxş hesab edilə bilməz. Bahar ilin bir fəslidir, şeirdə isə söhbət, konkret olaraq may ayından, daha dəqiq desək, may ayının 1-dən gedir.

---

[4] *"Bakinski raboçi" qəzeti, № 115, 25 may 1925-ci il*

[5] *Ən çox tərcümə edilən şeir «До свиданья, друг мой, до свиданья» şeiridir. Bu şeir 9 müəllif tərəfindən tərcümə edilmişdir.*

[6] *Əmirxan Xəlilov. Sergey Yesenin: Mərdəkanın qızıl payızı və yazı. // "Azərbaycan" nəşriyyatı, Bakı,1996, səh.69. Рафик Новрузов. Художественный перевод и проблема взаимодействия, взаимообогащения литератур. // "Баку", Элм, 1990. стр. 306*

[7] *Rus şairləri Azərbaycan haqqında. //Azərbaycan Dövlət Nəşriyyatı, Bakı, 1955*

[8] *Rus şairləri Azərbaycan haqqında. //Azərbaycan Dövlət Nəşriyyatı, Bakı, 1955, səh.34-35*

Qeyd edildiyi kimi, "Прощай, Баку" şeiri "Bakinski raboçi" qəzetinin 25 may 1925-ci il tarixli 115-ci sayında dərc edilmişdi. Artıq Yesenin iki aya yaxın idi ki, Bakıdaydı. (O, Bakıya martın 30-da gəlmişdi). Yesenin Bakıda şox mehribanlıqla qarşılanmış, onun iştirakı ilə bir neçə şeir gecəsi keçirilmiş, şairlə müxtəlif görüşlər təşkil edilmişdi. Həmin səfərin ən yaddaqalan günlərindən biri 1 may günü idi. 1925-ci il may ayının 1-də Yesenin bütün günü Balaxanı neftçiləri və onların ailə üzvləri arasında olmuş, onlara şeirlər oxumuş, onlarla birlikdə rəqs etmiş, şənlənmişdir. Həmin gün sənədli film çəkilsə də, təəssüf ki, film saxlanmamışdır. Şeirdə "balaxanski may" dedikdə, şair o günü nəzərdə tutur.

Bir az irəliyə gedərək qeyd edək ki, ümumiyyətlə, yuxarıda adı çəkilən tərcüməçilərdən heç biri "балаханский май" ifadəsinin məhz "1 may" gününə aid oldüğünü "kəşf edə" bilməmişdir. Bunun orijinalda da "балаханский май" kimi verilməsinə baxmayaraq, bu məqam bütün tərcüməçilərə qarşı tutula biləcək ümumi iraddır.

RƏFİQ ZƏKANIN TƏRCÜMƏSİ:

Əlvida, ey Bakı, vəfalı şəhər!
Səni mən bir də görmədim bəlkə!
Qəlbim eşqinlə çırpınar, döyünər,
Ey mənə mehriban olan ölkə!

Əlvida, ey Bakı, günəşli şəhər!
Ey şüalandıran fikirlərimi!
Mənə ilham verən səmavi Xəzər –
Məni tərk eyləməz məzara kimi!

Əlvida, ey Bakı, gözəl mahnı!
Susuram, səndən ayrılarkən mən.
Bir qızıl gül tək əy qızıl başını,
"Əvida! Əvida!" deyək sən, mən...[9]

Rəfiq Zəkanın tərcüməsində orijinalın birinci misrası iki misrada ifadə edilmiş, orijinaldakı digər 3 misradan isə əsər-əlamət yoxdur. Belə ki, orijinaldakı

"Теперь в душе печаль, теперь в душе испуг.
И сердце под рукой теперь, больней и ближе,
И чувствую сильней простое слово: друг."

kimi açıq şəkildə ifadə edilmiş kədərli ayrılıq notunun

"Qəlbim eşqinlə çırpınar, döyünər,
Ey mənə mehriban olan ölkə!"

kimi quru, orijinala yad bir şəkildə verilməsi, təbii ki, qəbuledilməzdir.

Buradan açıq görünür ki, tərcüməçi orijinaldakı ruhu tuta bilməmiş, şairin ayrılıq anında hiss etdiyi o dərin kədəri və ürək döyüntülərini duya bilməmişdir. Orijinaldakı

"Прощай, Баку! Синь тюркская, прощай!
Хладеет кровь, ослабевают силы."

fikrinin də

"Əlvida, ey Bakı, günəşli şəhər!
Ey şüalandıran fikirlərimi!"

kimi qeyri-dəqiq tərcüməsinin də kimi isə razı salacağı real görünmür. Buradakı "Ey şüalandıran fikirlərimi!" misrasının haradan əmələ gəlməsi xeyli düşündürür. Görünür, tərcüməçi orijinaldakı "синь" sözünü «сияние» (nur saçma, işıq saçma, şölə) sözü ilə qarışdırmış və ona görə də fikir qeyri-dəqiq tərcümə edilmişdir. Digər tərəfdən, ikinci bənddə orijinaldakı "балаханский май" ifadəsinin də fərqinə varılmamışdır.

Şeirin üçüncü bəndinin tərcüməsi də təəssüf doğurur. Belə ki, "В последний раз я друга обниму..." fikri "Susuram, səndən ayrılarkən mən" kimi cansız şəkildə qeyri-dəqiq verilmişdir. Ümumiyyətlə, bu tərcümədən bəzi ifadələri silsək, onun məşhur "Прощай, Баку»"nun tərcüməsi olduğunu anlamaq çətin olar.

Rəfiq Zəkanın bu tərcüməsi haqqında tədqiqatçı Əmirxan Xəlilov haqlı olaraq yazır: "Orijinaldakı "ürək sançması" isə R.Zəkada tamam əks mənada, həm də qeyri-poetik tərcümə olunmuşdur: "Qəlbim eşqinlə çırpınar, döyünər". Buradan göründüyü kimi, "ürəyin sançması" hara, "eşqlə döyünməsi" hara? Bu cür təhriflər isə R. Zəkanın tərcüməsində çoxdur. Bu tərcümədə şeir heç bir ehtiyac olmadan "sən, mən, səni mən" sözləri ilə yüklənmişdir. Başlıcası isə budur ki, burada Yesenin duyulmamış, onun fikirləri, qəlb çırpıntıları çox saxta ifadə olunmuşdur. Bu tərcümənin zəifliyi digər tərcümələrlə müqayisədə daha aşkar görünür. Burada "şimal fırçasının" rəsm etdiyi Şərq boyaları öz ruhu, paklığı və təbiiliyi ilə ifadə olunmamışdır.

Tərcümə ən mühüm yaradıcılıq sahəsidir. Bu, hər hansı müəllifdən daha böyük yaradıcılıq məsuliyyəti tələb edir. Çünki bu, orijinalda yazan sənətkarın öz naməlum tərcüməçisinə əmanətidir.

Əmanətə isə xəyanət olmamalıdır."[10]

---

[9] *"Azərbaycan gəncləri", 29 may, 1964*

[10] *Əmirxan Xəlilov. Sergey Yesenin: Mərdəkanın qızıl payızı və yazı. //"Azərbaycan" nəşriyyatı, Bakı, 1996, səh. 71*

Pərvanə Məmmədova isə öz əsərində Rəfiq Zəkanın tərcüməsini yenidən sətri olaraq rus dilinə tərcümə edir və belə nəticəyə gəlir: "Hətta tərcümənin orijinalla səthi tutuşdurulması belə onun uğursuzluğunu göstərir. Tərcümədə bir misra, bir beyt belə yoxdur ki, orijinalda onun analoqunu tapıb deyə biləsən: "Bəli, bu, müəllifdən gəlir, şeirin əslindən gəlir."[11]

ƏHMƏD CƏMİLİN TƏRCÜMƏSİ:

Əlvida, Bakı! Daha çətin bir də görüşək...
İndi könlümə dolan qorxudur, qəm-qüssədir.
İndi əlimin altda daha bərk sancır ürək,
İndi daha dərindən duyuram ki, dost nədir.

Əlvida Bakı! Ey Şərq üfüqləri, əlvida!
İnan, qanım soyusa, taqətdən düşsəm də mən,
Apararam, gedəcək mənimlə ta qəbrəcən
Balaxanı mayı da, Xəzər dalğaları da.

Əlvida! Salamat qal nəğməli könül kimi!
Qoy mən son dəfə öpüm barı dostu, yoldaşı...
Bənövşəyi tüstüdə əyilsin qoy gül kimi
Dostun ugur diləyən, "yaxşı yol!" deyən başı.[12]

Əhməd Cəmilin tərcüməsi hər mənada uğurlu hesab edilməlidir. Tərcüməçi orijinaldakı ruhu dərindən duya bilmiş, orijinala sadiqliyə nail olmuş, orijinaldakı poeziyanı, şeiriyyəti oxuculara çatdırmağa tam müvəffəq olmuş, şeirdə əsas məqamlar kimi, hər üç bəndin son beytlərini dəqiq və şairanə ifadə etmişdir. Lakin qeyd etməliyik ki, ilk 2 bənddə tərcüməçi "Əlvida, Bakı!" ifadəsini saxlasa da, 3-cü bənddə təkrardan imtina etməklə, yuxarıda qeyd edildiyi kimi, orijinalın özünəməxsus formasını pozmuş, səslənməsini zəiflətmişdir. Birinci bəndin son üç misrasında dalbadal "indi" sözünün işlədilməsi və üçüncü bəndin birinci misrasında "əlvida" və "salamat qal" ifadələrinin bir yerdə işlədilməsi də arzu edilən hal deyil.

Burada bir məsələni qeyd etmək istəyirik. Şeir orijinalda belə qurtarır:

Чтоб голова его, как роза золотая,
Кивала нежно мне в сиреневом дыму.

Müəllif Pərvanə Məmmədova Əhməd Cəmilin tərcüməsinin son bəndini təhlil edərkən yazır: "Orijinaldan görünür ki, söhbət Bakı mayından – yasəmənlərin çiçək açdığı dövrdən gedir. Beləliklə aydındır ki, "сиреневый дым" rəngdən başqa müəyyən metaforik və konkret astronomik zaman mənası da kəsb edir. Və belə transformasiya (*orijinaldakı "сиреневый дым" ifadəsinin tərcümədə "фиалковый дым" kimi verilməsi* – **İ. İsaxanlı**) yolverilməzdir, çünki yazın sonu (may ayı) bir az əvvəlki dövrlə (mart ayı), bənövşələrin çiçək açdığı dövrlə əvəz edilir."[13]

Buradan açıq görünür ki, Pərvanə Məmmədova "сиреневый дым" ifadəsini birbaşa yasəmən gülü ilə bağlayır. Fikrimizcə, bu iddia nə qədər maraqlı olsa da, yanlışdır. Belə olan halda "сиреневый дым" ifadəsindəki "дым – tüstü" sözü, ifadəyə "metaforik don" geyindirilsə belə, anlaşılmaz qalır. İddia edirik ki, Yesenin "сиреневый дым" yazarkən, yasəmən güllərini deyil, neftin istehsalı zamanı borulardan çıxan, o zamankı Bakının (elə indiki Bakının da) rəmzi olan və sanki yasəmən rəngə çalan neft tüstülərini nəzərdə tutur. Dərin bənzətmə ustalığına qadir olan Yesenin Bakı ilə vida mənzərəsini məhz Bakının rəmzi olan neftin "yasəməni tüstüləri" fonunda təsvir edir. Qeyd edək ki, bu məqam tərcümələrdə də müxtəlifliyin yaranmasına səbəb olmuşdur. Ələkbər Ziyatay və Əhməd Cəmil "сиреневый дым" ifadəsini tərcümə edərkən məhz "yasəmən"ə deyil, "tüstü"yə vurğu edərək tərcümə etmişlər. Onların tərcümələrindəki yasəmən və bənöbşə isə yalnız tüstünün rənginə işarədir. Digər tərcümələrdə Yesenin Bakı ilə yasəmən gülünün "anlaşılmaz tüstüsündə" vidalaşır. Bu şeirin indiyə qədər məlum olan son tərcüməsinin müəllifi Firuz Mustafa isə ümumiyyətlə seçim arasında qalaraq vida mənzərəsini "yasəmən tozu"nda təsvir edir.

ƏLİAĞA KÜRÇAYLININ TƏRCÜMƏSİ:

Əlvida, Bakı! Səni mən bir daha görmərəm.
İndi mənim qəlbimdə kədər, qorxu səsi var.
Ürəyim daha yaxın, xəstəhal vurur bu dəm,
Daha möhkəm duyuram-sadə dost kəlməsi var.

Əlvida, Bakı! Mavi türk səması, əlvida!
Qüvvədən düşürəm mən, damarımda donur qan.
Mən bir səadət kimi aparram məzaracan
Balaxanı mayını, Xəzər dalğasını da.

Əlvida, Bakı! Sadə nəğmə kimi, əlvida!
Son dəfədir sıxıram sinəmə dostumu mən...
Onun başı qoy qızılgül kimi bu son anda
Yellənsin vida deyə yasəmənlər içindən.[14]

---

[11] *Первана Мамедова. Сергей Есенин на Азербайджанском языке. //Баку – 2003, стр.73-74*

[12] *"Ədəbiyyat və incəsənət", 6 oktyabr, 1974*

[13] *Первана Мамедова. Сергей Есенин на Азербайджанском языке. // Баку – 2003, стр.77*

[14] *Sergey Yesenin. Şeirlər və poemalar. Azərbaycan Dövlət Nəşriyyatı, 1975, səh.154*

Əliağa Kürçaylının bu şeiri müəllifin ayrılıq anında keçirdiyi hissləri dərindən duyaraq tərcümə etdiyi açıq hiss olunur. Tərcüməçi orijinaldakı ürək döyüntülərini, ayrılıq kədərini orijinala xeyli yaxın, dolğun verə bilmişdir. Bununla belə, tərcümədəki 3 məqamı qeyd etmək istəyirik.

Birincisi, birinci bəndin ikinci misrasında ("İndi mənim qəlbimdə kədər, qorxu səsi var") "səsi" sözünün əvəzinə "hissi" sözünün işlədilməsi daha doğru olardı. Çünki insan kədəri, qorxunu eşitmir, hiss edir.

İkincisi, həmin bəndin 3-cü misrasının ("И сердце под рукой теперь, больней и ближе") "Ürəyim daha yaxın, xəstəhal vurur bu dəm" kimi tərcüməsi uğurlu seçim deyil. Belə ki, orijinaldakı «ближе» sözünün "yaxın" kimi hərfi tərcümə edilməsi misradakı şeiriyyəti öldürür. Əslində, şair «ближе» deməklə, ürəyinin həyəcandan çırpındığını, şiddətlə vürdüğünü, döyündüyünü ifadə etmişdir.

Üçüncüsü, son bəndin son beytindəki "yasəməni tüstülər" ("сиреневый дым") yasəmən gülü kimi ifadə edilmişdir.

KNYAZ ASLANIN TƏRCÜMƏSİ:

Əlvida, ey Bakı! Ayrılaq gərək.
Kədər var, qorxu var qəlbimdə indi.
Əlimin altında ağrıyır ürək,
Dostu qoyub getmək yaman çətindi.

Əlvida, ey Bakı! Ey türk səmasi!
Tükənir qüvvətim, buzlayır qanım.
Mənimlə məzara gedir, inanın,
Balaxanı mayı, Xəzər dalğası.

Əlvida, ey Bakı! Sadə nəğmətək!
Son dəfə dostyana qoy qucum səni...
Qoy qızıl gülləri yelləsin külək,
Yasəmən baş əyib ötürsün məni.[15]

Orijinalda - birinci bənddə Bakıdan ayrıldığı və bir də onu görməyəcəyi üçün şairin qəlbində bir kədər, bir qorxu var. Tərcümədə isə şair Bakı ilə sadəcə olaraq ayrılır, orijinaldakı bir də görüşməmək fikri burada öz əksini tapmır. Birinci bəndin son misrasında da tərcüməçi orijinaldakı fikri xeyli fərqli ifadə etmişdir. İkinci bənddə tərcüməçi orijinaldakı mənanı və poeziyanı tam saxlamağa müvəffəq olmuşdur. Lakin üçüncü bəndin tərcüməsi haqqında bunu demək mümkün deyil. Həmin bəndin ikinci misrasındakı «друг» sözünün "dostyana" kimi verilməsi uğursuz seçimdir. Çünki "dostyana" sözü "dost" sözündən kifayət qədər zəif məna daşıyır. Digər tərəfdən, orijinalın son beytinin də "Qoy qızıl gülləri yelləsin külək, Yasəmən baş əyib ötürsün məni" kimi tərcüməsi də tələbkar tədqiqatçını razı sala bilməz. Bu beyt orijinaldakından tamamilə fərqli məna kəsb edir. Doğrudur, beyt kifayət qədər şairanə səslənir. Amma Yesenin belə deməyib.

ELDAR NƏSİBLİ SİBİRELİN TƏRCÜMƏSİ:

Əlvida, Bakı! Səni bəlkə görmədim yenə,
İndi könlüm kədərli, qəlbim səksəkəlidir.
Ürəyim də əl altda xəstə olsa da, sənə
Sadəcə dostum desəm, hər şeydən irəlidir.

Əlvida, Bakı! Doğma türk göyləri, əlvida.
Daha qanım soyuyur, daha gücüm yayınır.
Xoşbəxtlik tək aparram özümlə məzara da
Xəzərin dalğasını, Balaxanı mayını.

Əlvida, Bakı! Sadə nəğmə kimi, əlvida.
Sonuncu dəfə səni, gəl, sıxım köksümə mən.
Dostum, qızılgül kimi qoy yellənsin başın da
Mənimlə vidalaşan yasəmənlər içindən.[16]

Şeirin 1-ci misrasında Yesenin bir də Bakını görməyəcəyindən əmin olsa da, (Тебя я не увижу), tərcüməçi buna şübhə edir: "Səni bəlkə görmədim yenə."[17]

Bununla belə, tərcüməçi şeirin ikinci "Теперь в душе печаль, теперь в душе испуг" misrasını xeyli maraqlı, şairanə ifadə etməyə müvəffəq olmuşdur:

İndi könlüm kədərli, qəlbim səksəkəlidir.

Orijinaldakı "И сердце под рукой теперь, больней и ближе" fikrinin "Ürəyim də əlaltda xəstə olsa da" kimi tərcümə edilməsi isə bizi qane etmir. Şairin ürəyi xəstə deyil, o sadəcə Bakıdan ayrılıq kədərini ifadə edir. İkinci bəndin ikinci misrası da ("Daha qanım soyuyur, daha gücüm yayınır") şeiriyyət baxımından xeyli zəifdir. Üçüncü bəndin son beytində də, tərcümələrin əksəriyyətində olduğu kimi, "yasəməni tüstülər" ("сиреневый дым") "yasəmən gülü" kimi ifadə edilmişdir.

FİRUZ MUSTAFANIN TƏRCÜMƏSİ:

Səni görməyəcəm, əlvida, Bakı!
Qəlbimi sarıbdı kədər, qüssə-qəm.
Ürəyim köksümdən çıxacaq sanki,
Dostumsan – bu sözlər çıxır dilimdən.

---

[15] *Poetik tərcümələr. 1-ci toplu. Xəzər Universitəsi Nəşriyyatı, 2005, səh.123*

[16] *"Azərbaycan", 4 iyun, 2006.*

[17] *Əslində, "tərcüməçinin şübhəsi" xeyli əsaslıymiş. Yesenin "Əlvida, Bakı" yazsa da, Bakıdan ayrıla bilmir və iyul ayının 28-də nişanlısı S.A.Tolstaya ilə yenidən Bakıya gəlir və sentyabrın 3-nə qədər Bakıda olur.*

Əlvida, türk göyü - əlvida, Bakı!
Ürəyim sonuncu anları sayır.
Qəbrəcən könlümdə qalacaq bil ki,
Xəzər ləpələri, Balaxan mayı.

Nəğmətək, əlvida! Əlvida, Bakı!
Öpürəm mən gözü yaşlı dostumu.
Yasəmən tozunda qızıl gül kimi
Əyilir köksünə başı dostumun.[18]

Bu tərcümə şeirin bu günə məlum olan son tərcüməsidir. Tərcüməçi "Əlvida, Bakı!"nı hər bəndin birinci misrasının əvvəlində deyil, sonunda verməklə müəyyən mənada formanı saxlamağa çalışsa da, fikrimizcə, şeirin ümumi səslənməsinə xələl gətirmişdir. Tərcüməçi birinci bəndi kifayət qədər dolğun və şairanə ifadə etsə də, ikinci bənddəki "Хладеет кровь, ослабевают силы" misrasını "Ürəyim sonuncu anları sayır" kimi tərcümə etməsi, fikrimizcə, ümumilikdə qəbul ediləbilən olsa da, şeiriyyət baxımından zəifdir. Bu misra orijinaldakı sözlərin hərfi tərcüməsi ilə daha təsirli verilə bilərdi. Şeirin son beytindəki "yasəməni tüstülər" ("сиреневый дым") ifadəsinin tərcümədə ümumiyyətlə qeyri - müəyyən "yasəmən tozu" kimi verilməsi də anlaşılmazdır. Tərcümədə (E.N.Sibirelin tərcüməsində də) "Синь тюркская" ifadəsinin digər tərcümələrdən fərqli olaraq "Türk səması" kimi deyil "Türk göyü" kimi verilməsi də tapıntı sayıla bilməz.

Göründüyü kimi, "Прощай, Баку" şeirinin tərcümələri zaman kəsiyi baxımından düz 60 illik bir dövrü (ilk tərcümə -1955, son tərcümə -2006) əhatə edir. İlk 4 tərcümə 20 illik kəsikdə (1955-1975) edilsə də, bundan sonra 30 illik bir dövrdə (1975-2005) bu şeirə müraciət edən olmamışdır. Nəhayət, 2005-ci ildən etibarən, şairin anadan olmasının 110 illiyi ərəfəsində, Yesenin poeziyasına böyük həvəs göstərən bir sıra şair tərcüməçilər onun çoxsaylı şeirlərini, o cümlədən "Прощай, Баку" şeirini tərcümə etmişlər. Şeirin mövcud yeddi tərcüməsindən 4-ü 14 hecalı, 2-si 11 hecalı misralarla, biri isə (Rəfiq Zəkanın tərcüməsi) əruz vəznində tərcümə edilmişdir. Yuxarıda apardığımız təhlillər və ümumiyyətlə bu tərcümələr haqqında mütəxəssislərin fikri onu deməyə əsas verir ki, "Прощай, Баку" şeirinin tərcüməsində 14 hecalı (və ya daha çox hecalı) misralar daha praktik və daha düzgün seçimdir, şeirin ruhuna daha uyğundur. Məhz bu halda şeirdəki ürək yanğısı, ayrılıq kədəri daha dəqiq, daha təsirli və daha şairanə verilə bilir. 11 hecalı tərcümələrdə isə bütün bu məqamları vermək üçün sanki bir "darlıq" hiss olunur, "heca çatışmazlığı", "söz çatışmazlığı" problemi yaranır. Biz bu fikri ən azı şeirin bu günə məlum olan tərcümə variantlarına dayanaraq söyləyirik. Ümumiyyətlə, mövcud 7 tərcümə variantının hər birində güclü və zəif məqamlara rast gəlinsə də, hesab edirik ki, 14 hecalı tərcümələrdən Ələkbər Ziyatayın, Əhməd Cəmilin və Əliağa Kürçaylının tərcümələri, 11 hecalı tərcümələrdən isə Knyaz Aslanın tərcüməsi daha ürəyəyatımlıdır. Yuxarıda 14 hecalı misralarla edilmiş tərcümələrin xeyrinə söylədiyimiz fikrə əsaslanaraq qeyd edək ki, bu 4 tərcümədən ilk 3-ü daha uğurlu hesab edilməlidir.

Yuxarıda göstərdiyimiz müxtəlif çatışmazlıqlara baxmayaraq, fərqləndirdiyimiz 3 tərcümə arasında (Ələkbər Ziyatayın, Əhməd Cəmilin və Əliağa Kürçaylının tərcümələri) seçim etmək kifayət qədər çətin və "təhlükəlidir". Fikrimizcə, bu tərcüməçilərin hər üçü Yeseninin "ürəyinin qanı" ilə yazdığı bu şeiri böyük ilhamla, böyük ürək yanğısı ilə, orijinalın ümumi ruhunu, orijinaldakı ayrılıq kədərini dərindən duyaraq ustalıqla tərcümə etmiş, orijinaldakı şeiriyyəti maksimum saxlamağa nail olmaqla, Yesenin və Bakı adına layiq bir tərcümə nümunəsi yaratmağa müvəffəq olmuşlar.

Yesenin poeziyasına olan sonsuz məhəbbəti nəzərə alsaq, onun şeirlərinin, o cümlədən "Прощай, Баку" şeirinin yeni-yeni tərcüməçilər tərəfindən tərcümə ediləcəyinə, yeni tərcümə variantlarının meydana gələcəyinə heç şübhə yoxdur.

İsaxan İSAXANLI

Serqey Yesenin

* * *

Getdin, bir də geri dönən deyilsən,
Unutdun biryolluq biz tərəfləri.
İndi başqasına baxıb gülürsən,
Çəkərək üzünə ağ örpəyini.

Həmdəmim kədərdir, qəmdir həmişə,
Bax, narahat yanır buxarım yenə.
Vərəqlər içində solan bənövşə,
Keçmiş səadətdən söz açır mənə.

Tərcümə:
İsaxan İSAXANLI

[18] *"Yeni Azərbaycan", 29 aprel, 2005*

ЛИНИЯ АЛИЕВОЙ

Представляем читателям интервью Первой леди Азербайджана Мехрибан Алиевой всемирно известному журналу Harper's Bazaar.

ВОСТОЧНАЯ КРАСАВИЦА МЕХРИБАН, ЖЕНА ПРЕЗИДЕНТА АЗЕРБАЙДЖАНА ИЛЬХАМА АЛИЕВА, ПОЖАЛУЙ, САМАЯ ДЕЯТЕЛЬНАЯ ПЕРВАЯ ЛЕДИ В МИРЕ. ЭТОЙ ОСЕНЬЮ В БАКУ ОТКРЫВАЕТСЯ СОЗДАННЫЙ ПО ЕЕ ИНИЦИАТИВЕ МУЗЕЙ СОВРЕМЕННОГО ИСКУССТВА.

- Мехрибан ханум, Ваши дочери Арзу и Лейла признаются, что в неформальной обстановке вас часто принимают за трех подруг. Вы стали мамой очень рано. Как это изменило Вашу жизнь?

- Мне было 19 лет, когда родилась Лейла, и я никогда не забуду ту огромную радость, которую подарило мне это раннее материнство. Самая главная, самая важная составляющая моей жизни - это мои дети. Я - мать троих детей, и все, что касается их жизни - успехи и достижения, проблемы и тревоги, - мне близко и дорого. Для меня одинаково важно то, что Гейдар на занятиях по плаванию осилил лишнюю сотню метров, Арзу отлично сдала экзамен



и поступила в магистратуру, а Лейла активно занялась общественной деятельностью. Меня радует, что они делятся со мной своими проблемами и обращаются за советом в разных жизненных ситуациях. Но я никогда не навязываю свое мнение детям. Я уважаю их личное пространство и стараюсь всегда оставлять за ними право выбора. При всей моей безграничной любви, это их



жизнь, и они должны строить ее самостоятельно.

- Часто ли Вы вспоминаете свое детство?

- Мне кажется, детство - единственный отрезок жизни, когда можно чувствовать себя абсолютно счастливой. Детство, конечно, заканчивается, но эмоции остаются на всю жизнь. В детстве все усваивается легко. Я до сих пор жалею, что не научилась играть на фортепиано и не выучила французский язык!

- Есть ли в Вашей семье традиции, которые передаются по женской линии?

- Моя мама была невероятно красивой женщиной. Она обладала той редкой внешностью, когда каноническая красота сочетается с яркой индивидуальностью. Стоило ей войти в любое помещение, как все взгляды непроизвольно обращались к ней. Она была и предельно сердечной, и достаточно отстраненной. Мама - первая в Азербайджане женщина-профессор, доктор наук по востоковедению. Наверное, именно ей удалось сформировать во мне высокое чувство ответственности. Родители никогда не читали мне нотаций. Просто было очевидно: я не могу плохо учиться, недобросовестно относиться к своим обязанностям, плохо выглядеть.

Мы с сестрой буквально впитывали семейные традиции. Все торжества, дни рождения, присвоение ученых званий мы справляли вместе - за одним столом собирались представители трех-четырех поколений. Так, видимо, и возникает чувство принадлежности к своему роду, к своим корням. Так же и у моих дочерей. Несмотря на то, что большая часть их осознанной жизни прошла за рубежом, при любой возможности они приезжают домой, в Азербайджан. В них жив национальный дух.



- Ваши дочери получили образование за границей, в Лондоне. Легко ли Вам было отпустить их?

- Представьте себе: Арзу было 9 лет, Лейле 11. Мой сын Гейдар родился в Лондоне, и девочки в этот момент были с нами. Начинался учебный год, и я решила, что временно они будут учиться в лондонской школе. Девочки там легко адаптировались. Потом мы с супругом взвешивали все «за» и

«против». Мы понимали, что школа в Лондоне - не только высококлассное образование, но и шанс для девочек почувствовать себя самостоятельными, без привычной опеки. В то время мой свекор Гейдар Алиевич Алиев был президентом Азербайджана, и, естественно, у нас был определенный стиль жизни. Сейчас я понимаю: тогда было принято мудрое решение. Дочери стали более коммуникабельными, самостоятельными. Они свободно говорят на пяти языках: кроме родного азербайджанского, владеют русским, английским, испанским и французским. Они стали ощущать себя гражданами мира. Эмоционально мне пришлось очень тяжело. Но, к счастью, материнский эгоизм не пересилил разум. Все эти годы я ждала, что девочки вернутся домой. Но Лейла вышла замуж, сейчас живет в Москве. Арзу еще учится в Лондоне.

- У кого Вы заказывали шляпу накануне визита к английской королеве? Дочери помогали вам с выбором?

- Нет. Ничего особенного накануне визита к королеве я не предпринимала. У нас был официальный визит. Согласно протоколу, в таком случае шляпа и перчатки не требуются. Шляпа необходима при государственном визите.

- Прислушиваетесь ли Вы к советам своих дочерей?

- Да, достаточно часто. Под влиянием девочек стала активнее пользоваться Интернетом. И сейчас, работая за компьютером, часто обращаюсь к ним за помощью.

- Под Вашим патронажем происходит огромное количество культурных и гуманитарных мероприятий. Как Вы все успеваете?

- Проекты в области культуры я начала реализовывать еще до того, как мой муж стал президентом. В 1995 году был учрежден Фонд друзей культуры Азербайджана. Мне хотелось, чтобы на международной арене Азербайджан представлялся не только как государство, богатое нефтью и газом, а как страна, создавшая шедевры во многих областях



- в музыке, архитектуре, изобразительном и прикладном искусстве.

Так же естественно началась моя деятельность в качестве президента Фонда Гейдара Алиева. Приоритетные направления работы Фонда - это образование, здравоохранение, культура, социальная сфера. Мы начали с ма-



териально-технической базы школ. Обращались в международные организации, в крупные компании, объясняли, что есть небольшие школы в сельской местности, которым необходимо помочь в первую очередь. И совместными усилиями за четыре года было построено около 300 современных школ, оснащенных необходимым оборудованием. У Фонда есть специальная программа помощи больным детям. К нам обращаются тогда, когда почти отчаялись получить помощь. Я стараюсь лично проследить судьбу каждого такого ребенка. Одно из наших правил: все обращения в Фонд должны быть прочитаны, проанализированы, и по каждому надо принять конкретное решение.

- При Вашем личном участии происходит реконструкция исторического центра Баку?

- Баку отличается самобытной красотой и неповторимостью, а сегодняшний его облик - результат труда большой профессиональной команды. Инициатором бакинских перемен является президент Азербайджана. Мне кажется, трудно найти человека, более влюбленного в Баку, чем Ильхам. Объем работы у президента колоссальный, тем не менее он находит время, чтобы лично участвовать в бакинских переменах. Я же, опираясь на свой вкус, могу дать совет, подсказать цветовую гамму, форму - в этом заключается моя роль. Баку всегда был красивым городом, сочетающим в себе старину и современность. Но то, что мы видим сегодня, - это уже предмет гордости всех бакинцев.

- Испытываете ли Вы слабость к коврам? Есть ли у Вас старинные ковры?

Я вообще к каким бы то ни было



материальным вещам, предметам слабости не испытываю. А что касается ковров, то для каждого азербайджанца ковер - неотъемлемая часть жизни. Старинные ковры, на мой взгляд, должны принадлежать музеям.

- Вы стали инициатором создания музея современного искусств?

- Музей современного искусства был просто необходим. В Азербайджане всегда было много замечательных художников, но при советской власти часть работ не демонстрировалась по идеологическим соображениям, а в первые годы независимости у государства не было возможности поддерживать искусство в полном объеме. Зато сейчас мы смогли создать музей, который сам по себе является предметом искусства: нет строго определенных маршрутов, посетители могут рассматривать коллекцию, как им нравится. Музей напоминает лабиринт, находить выход из которого совсем не хочется. Во всяком случае, мои ощущения именно таковы. И очень надеюсь, что гости музея также почувствуют эту уникальную атмосферу.

АРЗУ АЛИЕВА:

О моде. Свои первые уроки стиля мы с сестрой получили в раннем детстве, наблюдая за мамой. Она одевалась, красилась и причесывалась, а мы, маленькие, сидели и смотрели на нее. Мама не давала нам никаких специальных наставлений, но, становясь старше, мы непроизвольно начали подражать ее стилю.

О маме. Мама умеет выбирать одежду для нас. Даже если нас нет рядом, она может точно оценить, подойдет или нет, и никогда не ошибается.

О себе. Если мы всей семьей куда-то идем, то вместе готовимся к выходу, советуемся друг с другом. Обычно я стараюсь выделиться. Это непросто. При этом я придерживаюсь достаточно консервативного стиля - провокации и суперхиты не для меня.

ЛЕЙЛА АЛИЕВА:

О моде. Мой стиль нельзя назвать ни московским, ни бакинским, он, скорее, лондонский. Ведь я выросла в Англии. В Лондоне не принято тратить много времени на свой наряд. Джинсы, кроссовки - и побежала. В Москве и в Баку к гардеробу принято относиться серьезнее. И это радует.

О маме. Мама всегда знает, что с чем надеть, что с чем сочетается. Если у меня возникают вопросы, я обращаюсь за советом к маме. И больше ни к кому.

О себе. Иногда мы вместе ходим по магазинам. Но, к сожалению, это случается не так часто, как хотелось бы. Я в первую очередь выбираю одежду по принципу «идет-не идет», а не «модно-немодно». У нас троих один размер, поэтому иногда мы меняемся одеждой. Как и мама, я предпочитаю лаконичные, не перегруженные деталями однотонные платья. Больше всего люблю черный цвет. Стараюсь носить не то, что узнаваемо, что стало хитом коллекции, а то, что мне идет.

Day.az

YAZIÇI, DRAMATURQ VƏ TƏRCÜMƏÇİ, ƏDƏBİYYATŞÜNAS, PUBLİSİST VƏ DÖVLƏT XADİMİ



Bu sözlərin hamısı adı Azərbaycan ədəbiyyatı ilə, ölkəmizdə bədii yaradıcılığın hərtərəfli inkişafı ilə sıx bağlı olan, xalqımızın mədəniyyətində və ictimai həyatında silinməz izlər qoymuş bir insan - Mirzə İbrahimov haqqındadır.

Onu sevirlər, yad edirlər, ehtiram bəsləyirlər - bizə miras qalmış əsərlərinə görə, vətəndaş cəsarətinə, yüksək humanizminə, böyük istedadına görə. Məhz bu səbəbdən, Teymur Əhmədovun bu görkəmli şəxsiyyətin həyat və yaradıcılığına həsr etdiyi, respublika "Kitab" cəmiyyətinin sədri, nadir muzeyin banisi Zərifə Salahovanın təşəbbüsü sayəsində ərsəyə gəlmiş minikitabının oktyabrın 10-da keçirilmiş təqdimat mərasimində onun haqqında bu cür səmimi sözlər deyildi.

Görüşdə çıxış edən alimlər – Azərbaycan parlamentinin deputatı Cəmil Həsənli, Sabir Nuri oğlu və başqaları ana dilimizin böyük təəssübkeşi Mirzə İbrahimovun Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin sədri olarkən respublikamızın Konstitusiyasına Azərbaycan dilinin ölkəmizdə dövlət dili olması haqqında maddənin salınmasını təşkil etdiyini xatırladılar. Bu cəsarətli addım o zaman hər bir azərbaycanlının qəlbində Azərbaycançılığa bağlılıq hisslərini gücləndirmişdi.

Amma, hər halda, Mirzə İbrahimov kimi görkəmli şəxsiyyət haqqında xatirələrin əksəriyyəti onun müdriklik, təvazökarlıq, insanlara, xüsusən gənclərə xeyirxah münasibət, onları dəstəkləməyə, köməklərinə yetişməyə həmişə hazır olmaq kimi yüksək insani keyfiyyətləri ilə bağlı idi. Yazıçı-publisist, Milli



Məclisin deputatı Elmira Axundova, filologiya elmləri doktoru Gülrux Əlibəyli, Azərbaycan Yazıçılar Birliyinin katibi, xalq yazıçısı Çingiz Abdullayev və başqaları bu barədə çox maraqlı söhbətlər etdilər.

Görüşün sonunda miniatür kitabın qəhrəmanının ailə üzvləri Mirzə İbrahimov haqqında xoş xatirələrə görə təqdimat mərasiminin təşkilatçısı Zərifə Salahovaya və görüşün bütün iştirakçılarına təşəkkürlərini bildirdilər.

ƏRTOĞRUL CAVİDİN 90 İLLİK YUBİLEYİ

Oktyabrın 8-də Ərtoğrul Cavidin anadan olmasının 90 illik yubileyi münasibətilə görkəmli şair-dramaturq Hüseyn Cavidin Naxçıvan şəhərindəki ev-muzeyində "Yarımçıq notlar" adlı tədbir keçirilmişdir.

Tədbirdə -muzeyin direktoru, Naxçıvan MR əməkdar mədəniyyət işçisi Bəhruz Axundov çıxış edərək demişdir ki, bəstəkar çox az ömür sürməsinə baxmayaraq, el-oba üçün gərəkli olan bir işi – xalq mahnılarını, xalq oyun havalarını nota köçürməyə, nağıllarımız, dastanlarımız haqqında tədqiqat xarakterli məqalələr yazmağa, gözəl rəsm



əsərləri yaratmağa macal tapmışdır.

Natiqlər bildirmişlər ki, Ərtoğrul Cavid Nizaminin və digər şairlərin şeirlərinə mahnılar bəstələmişdir. O, Böyük Vətən müharibəsi başlanarkən "Cəbhədən məktub" simfonik balladasını və marş-lar yazmış, "Şeyx Sənan", "Məhsəti" operaları və bir sıra instrumental əsərləri isə yarımçıq qalmışdır. Qeyd olunmuşdur ki, Ə.Cavid Avropa və rus bəstəkarlarının romans və mahnılarının mətnlərini Azərbaycan dilinə tərcümə etmişdir.

Sonda Ərtoğrul Cavidə həsr olunmuş sərgiyə baxış keçirilmiş, məktəblilərin ifasında şeirlər səslənmişdir.

ЛИЧНОСТИ

ВЗГЛЯД ИЗ ЛОНДОНА: КОРОЛЕВА ЕЛИЗАВЕТА II



Газеты и журналы пестрят многочисленными фотографиями королевы. По телевизору показывают документальные фильмы о жизни этой экстраординарной и сильной женщины. Королевы-жены, королевы-матери, королевы – бабушки, которая со стороны так легко справляется со своими обязанностями монарха.

Но что мы знаем о Елизавете II? К сожалению, совсем немного. Поэтому давайте обратимся к известным биографам королевы и историкам, фактам.

Королева Елизавета II родилась 21 апреля 1926 года на Брютон Стрит в Лондоне. Её окрестили именем Елизавета Александра Мария 29 мая в церкви Букингемского дворца.



Многие предполагают, что маленькую принцессу назвали в честь Елизаветы I, что, однако, не соответствует действительности. Герцог Йоркский был так предан своей молодой жене, Елизавете Боус-Лион, что принял решение назвать первую дочь Елизаветой. Второе и третье имена выбраны в честь бабушки и прабабушки принцессы - королевы Марии и королевы Александры.

На второй год жизни принцессы семья герцога Йорк-ского переехала в таунхаус на улице Пиккадили, с великолепным видом на Грин Парк. Резиденция располагалась на пяти этажах с 25-тью спальнями, электрическим лифтом и бальным залом. Родители активно занимались воспитанием детей и создали расслабленную и счастливую атмосферу в доме.

Герцогиня, у которой были наилучшие воспоминания о детстве в Шотландии, хотела, чтобы Елизавета и её младшая сестра Маргарет Роуз, родившаяся в 1930 году, воспитывались в насколько возможно нормальных условиях. Родители играли со своими дочерьми, читали им сказки, сами купали их и гуляли с ними в парках. Как и сейчас, семья проводила рождественские праздники в Сэндрингэме, Пасху праздновали в Виндзоре, а летом отдыхали в Балморал Истэйт.

Обе принцессы воспитывались дома гувернанткой Марион Крофорд, которая охарактеризовала Елизавету как радостную, умную, рассудительную и аккуратную маленькую девочку. Елизавета с детства страстно любила собак и лошадей. Позднее, в 1950 году, была опубликована книга гувернантки о годах, проведённых с принцессами, после чего королевская семья с ней больше не разговаривала.


После отречения от престола дяди Елизаветы и коронования отца, принцесса и её семья переехали в Букингемский дворец. Когда Маргарет узнала о происходящем, она спросила Елизавету: «Значит ли это, что тебе придётся быть следующей королевой?»



«Да, когда-нибудь», - ответила десятилетняя принцесса. «Бедняжка», - пожалела будущую королеву сестра.

Отречение от престола Эдварда VIII, безусловно, навсегда изменило жизнь принцессы Елизаветы. Её отец стал королём, а она наследницей престола в случае, если в семье не родится сын.

Нашумевшая история отречения от престола дяди Елизаветы заслуживает особого внимания, так как стала одним из са-



мых громких скандалов в королевской семье, а также судьбоносным поворотом в жизни самой принцессы Елизаветы.

Принц Уэльский стал королём 20 января 1936 года, но отрёкся от престола всего лишь через 325 дней. Наследником престола он был очень популярен в Великобритании – приятной наружности, элегантный и светский, британцами он воспринимался как человечный и искренний будущий монарх. К тому времени, как он стал королём, у него, однако, уже был серьёзный роман, который изменит общественное мнение и о нём, и о его правлении.



Эдвард познакомился с Уоллис Симпсон, дважды разведённой американской светской дамой, на вечере в январе 1931 года. Элегантная, нежели красивая, вторая жена нью-йоркского бизнесмена Эрнеста Симпсона не сразу пленила принца. Как бы то ни было, лёгкий флирт быстро перерос в серьёзный роман к весне 1934 года. В 1935 году Эдвард уже не мог существовать без своей Уоллис.

Далее роман стал причиной кризиса для королевской семьи и британского правительства. В октябре госпожа Симпсон поселилась в доме в Риджент'с Парк, который для неё снимал король. В ноябре король решил, что хочет жениться на Уоллис, даже если для этого ему придётся отречься от престола. Невеста не претендовала на роль королевы, а была готова стать просто супругой короля, не являющейся королевой. Однако любая идея женитьбы короля на американке была отвергнута правительством. К этому моменту скандал попал в прессу, и Уоллис была вынуждена покинуть Англию. Король же пожелал обратиться к нации по телеканалу БиБиСи, чтобы попытаться изменить общественное мнение и заручиться поддержкой британцев, в чём правительство ему отказало. Причиной была возможность возникновения кризиса, подобного началу гражданской войны.

Итак, 10 декабря король подписал отречение от престола. В этот день он в последний раз отужинал со своей семьёй в Виндзоре. 11 декабря он обьявил своё решение по радио, объяснив, что не сможет нести бремя ответственности и выполнять обязанности короля без помощи и поддержки женщины, которую он



любит.

Гувернантка рассказала принцессам об изменениях, которые теперь ждут их семью. И когда отец девочек вернулся домой на обед, они впервые сделали перед ним реверанс. Считается, что новому королю была неприятна мысль о том, что его старшая дочь когда-то будет нести тяжёлое бремя монархии на своих хрупких плечах, но он сделал всё возможное, чтобы Елизавета была лучше подготовлена в государственных делах, чем он сам.

Задача короля Георга VI была



не из лёгких. Монархия оказалась ослабленной тем, что многие люди считали нарушением долга со стороны Эдварда VIII, а через три года началась война с Германией и её союзниками. Но король заслужил уважение своего народа во время Второй мировой войны, когда он и королева отказались покинуть Лондон, даже после попадания бомб в Букингемский дворец.

Трудоспособность и добросовестность короля в период правления сделали его национальным героем. К сожалению, Георг VI обладал слабым здоровьем и был заядлым курильщиком всю свою жизнь. В возрасте пятидесяти шести лет он скончался от рака лёгких. В это время Елизавета и её муж Филип находились с официальным визитом в Африке. Елизавета покинула Великобританию принцессой, а вернулась королевой.



Одетая в чёрный наряд, она спускалась по трапу самолёта в аэропорту Хитроу, где её встречал премьер-министр Винстон Черчилль. Жизнь полная долга началась. Публично Елизавета приняла потерю отца с достоинством и спокойствием. Эти две черты сопутствуют ей и отныне.

Сейчас королева Елизавета II здорова, у неё есть семья, а также преданность и любовь миллионов людей. Её место в истории определено – равное с её предшественницами Елизаветой I и королевой Викторией, выше, чем многие мужчины-монархи. Но её труд ещё не завершен. Историки согласны с тем, что Елизавета II более усердна и предана государственным делам, чем её великая соперница в истории – королева Виктория, которая, несмотря на то, что, как определяет её роль принц Филип, была «исполнительным монархом», бывало, скрывалась от публичной жизни, связанной с долгом королевы, когда ей того хотелось.

После коронации в 1953 году Елизавета II посещала иностранные государства с официальными визитами почти каждый год, от Пакистана до Брунея и Мозамбика, встречаясь с президентами, премьер-министрами и простыми людьми. Она была в Канаде 29 раз, в Австралии–16, а в Новой Зеландии–десять раз. В сравнении, единственной поездкой королевы Виктории была Швейцария. В дополнение, королева и принц Филип уже давно приняли решение посетить все наиболее важные города Великобритании для знакомства со своим народом.

Безусловно, было время в 1990-х годах, когда дом Виндзоров потерял значительную часть своего блеска в глазах общественности. Наиболее крупный ущерб имиджу королевской семьи был нанесён принцессой Дианой, которая по совершенно понятным причинам, сотрудничала с автором Эндрю Мортоном, выставляя напоказ «грязное бельё» британского королевского дома. Это привело к серии нелицеприятных «откровений» нелояльных бывших королевских слуг, внезапно создав моду на презрение людей, живущих в замках.

Известно, что у королевы никогда не было мысли об уходе на пенсию. Это факт, с которым принцу Чарльзу как наследнику престола необходимо смириться. Королева сказала: «Это работа на всю жизнь. Достичь зрелости в том, что привык делать, и принять тот факт, что это судьба».



Британцы продолжают задаваться вопросом, сможет ли институт монархии существовать в XXI веке и далее, или вместе с завершением правления Елизаветы наступит и конец королевской власти в Великобритании. Она бы этого не хотела, также как и большинство британцев, но, похоже, что в наше время монархия сильна настолько, насколько сильна личность, сидящая на троне. Она может быть

хрупка, как паутина, но в случае с королевой Елизаветой тверда, как сталь…

Несколько интересных и занятных фактов из жизни королевы Елизаветы II:

1. Королева однажды призналась южно-африканским школьникам, которые писали сочинение на тему «Если бы я был королём на один день», что самая неприятная вещь в королевской жизни – это необходимость позировать фотографам.

2. Королева любит свой стейк хорошо прожаренным – и не ест чеснок, чтобы не оскорбить людей, с которыми встречается.

3. В Австралии королеву любовно называют «Бетти».

4. На государственных банкетах сумочка королевы прицепляется специальным зажимом к столу, чтобы ей не пришлось нагибаться и искать её на полу.

5. Чтобы государственные тайны не попали в чужие руки, королева использует чёрную промокашку, которая уничтожается ежедневно.

6. На завтрак Елизавете приносят кусочек масла, клеймённый её же монограммой, и тост. Считается, что впервые она почувствовала себя королевой, когда увидела свою собственную монограмму на молочных бутылках в Виндзоре.

7. В 1948 году, после публичного объявления о первой беременности, Елизавета получила полторы тонны подгузников от народа США.

8. Тайная страсть королевы – это разглядывать чужие дома, но она говорит: «Было бы совсем странно навязываться в гости. Мой муж услышал, как я один раз об этом говорила и с тех пор, когда мы едем в машине и проезжаем красивый дом, он подъезжает по-ближе, чтобы



рассмотреть дом. Мне иногда становится ужасно стыдно, и я нагибаюсь и прячусь».

9. Когда 25-летняя Елизавета узнала, что станет королевой в 1952 году, она была в том же возрасте, что и её предшественница Елизавета I, когда та взошла на престол в 1558 году.

10. В последний раз королева делала реверанс на похоронах своего отца, короля Георга VI, в Виндзоре, в феврале 1952 года.

11. Королева раньше очень любила театр, но теперь предпочитает мюзиклы. Герцог Эдинбургский однажды объяснил, что, когда на сцене кто-либо из актёров произносил неприличное слово,весь театр поворачивался в их сторону, чтобы увидеть реакцию королевы. И это раздражало.

12. Во время одного из официальных визитов королевской четы в Париж принц Филип попытался забрать домой одну картину из Лувра. Он заметил портрет, который когда-то принадлежал королю Чарльзу I. Когда Филип перевернул картину, то увидел монограмму Чарльза I, выжженную на раме. «И я сказал королеве, может быть, вернём картину домой? Там был абсолютный испуг», - позже вспоминал он.

13. Королева очень бережлива. Ходит слух, что она прогуливается по Букингемскому дворцу, выключая свет для экономии энергии. Один из бывших приближённых говорит, что это нонсенс, но королева действительно экономит, где может и однажды вычеркнула 5 миллионов фунтов стерлингов из своего годового бюджета.

14. Перед смертью своей матери и сестры в 2002 году, королева начинала каждый день с телефонного звонка королеве-матери и принцессе Маргарет.

15. В прошлом году принц Эндрю подарил королеве iPod. А несколько лет назад он купил ей мобильный телефон.

16. Несмотря на то, что королева и принц Филип женаты уже почти 60 лет, они впервые публично поцеловались в новогоднюю ночь 2000 года, в начале нового тысячелетия.

Екатерина РУПЕРТИ,
соб. корр. "Русской Америки, NY" в Великобритании

"РУССКАЯ АМЕРИКА,NY",(361)

PROZA

Cahangir Suraxanlı

AXUND

Sənədli hekayə

Hər şeyə, hər kəsə diqqət yetirmək üçün ön cərgədə mülki paltarda oturmuşduq. Adi tamaşaçı olduğumuza şübhə etməsinlər deyə, heç nəyə açıq reaksiya verməməli idik.

Neçənci dəfə idi ki, din xadimləri ilə komsomolçuların görüşü keçirilirdi. Bu görüşləri Allahsızlar cəmiyyəti təşkil edirdi. Məqsəd, din xadimlərinə nəyin bahasına olursa-olsun Allahı, o dünyanı inkar etdirmək və bunu xalqa çatdırmaq idi. Di gəl ki, bəzi din xadimlərinin incə, ikimənalı cavabları istənilən nəticəni vermirdi.

Keçən dəfə görüşdə Axund Molla Şərif Əsirzadə sorğu-suala çəkilmişdi. Ona ilahiyyat (teoloqiya) üzrə fala aid sual verilmişdi. Onun fal, münəccimlik və astronomiya haqqında qısa izahı hamının diqqətini cəlb etmişdi. Şirin danışığındakı məntiq elə bil ki, hamını ovsunlamışdı. Astronomiyada bucaq anlayışı və onun rolunun izahını verdi. Dediyini Marağa rəsədxanası və Nəsrəddin Tusinin işləri ilə əlaqələndirdi. Qeyd etdi ki, sekans və kosekansı ilk dəfə Tusi işlətmiş və triqonometriyanı elm kimi formalaşdırmışdır. Onu diqqətlə dinləyən universitetin riyaziyyat kafedrasının qocaman professoru, rəhbərimiz polkovnikə nə dedisə, Axundu səhnədən düşürüb apardı.

Axund Molla Şərif Əsirzadə riyaziyyatı yaxşı bilirmiş, bundan professorun da xəbəri varmış. Ona qulaq asmaq üçün gəldiyini, söylədiklərinə heyrət etdiyini sonralar etiraf etdi.

Allahsızlar cəmiyyəti sonrakı görüşlər üçün iş üsulunda bəzi dəyişikliklər etməyi qərara almışdı. İndi əvvəlcə hazırlıq aparır, görüşdə iştirak edəcək komsomolçular təlimatlandırılır, suallar götür-qoy edilirdi.

Bu gün görüşə Mir Məmməd Kərim də gətiriləcəkdi. Bugünkü görüş də Əli Bayramov adına klubda (Murtuz Muxtarovun evi) keçirilir.

Tay-batay açılmış qapıdan daxil olanda, Murtuz Muxtarovun son günləri gözlərimin qarşısında canlandı.

XI Qızıl ordu Bakıya daxil olan kimi zabitlər aldıqları göstərişləri icra etməyə başlayırlar. Rus polkovniki at belində həmin bu qapıdan saraya daxil olur. Qoca xidmətçi polkovnikin qabağına çıxanda, atlı onu qamçı ilə vurur – get ağanı gətir bura – deyir.

Xidmətçi yuxarı qalxır, polkovnikin at ilə evə girdiyini xəbər verir.

Polkovnik pilləkənin qarşısında at belində heyranlıqla – it ətə baxan kimi – dər - divara, atın ayaqları altındakı xalçalara baxır, özündən razı halda qamçısını oynadır. Muxtarov pillələrlə aşağı düşəndə əlindəki qamçını qaldırır – düş qabağıma – deyir. İki üç addım qalmış Muxtarovun zəhmli səsi eşidilir:

– Ay heyvan, xalının üstünə atla çıxmazlar – deyir. Polkovnik qamçını qaldıranda alnından dəyən güllə əlini endirməyə imkan vermir. Qoca xidmətçi qamçını yerdən götürür, atı qapıya tərəf döndərir, qamçılıyır, qapını bağlayır.

Öz otağına qayıdan Muxtarov özünü də vurur.

Sonralar dörd ay ərzində bu evdən Moskvaya xalı-xalça, qızıl-gümüş, billur qab-qacaq, əntiqə əşyalar və qiymətli mallar daşınır. Hər şeyi aparılmış bu bina indi də xarici gözəlliyi və daxili quruluşu ilə insanı heyran edir. İndi cür-bəcür əməllər yuvasına çevrilmiş bu ev Əli Bayramov adına klub adlanır.

Artıq bir neçə molla səhnəyə çıxarılmış, komsomolçuların naqolay sualları qarşısında susmuş, bir

növ məsxərəyə qoyulmuşdu. Xırda mollaların söhbətləri məni maraqlandırmırdı. Ona görə səhnədəkilərə diqqət yetirmədim.

Dünən xüsusi yığıncaqda Mir Məmməd Kərimin keçdiyi həyat yolu araşdırılmış, zəif yer axtarılmışdı. Onun haqqında məlumat toplayanların çıxışlarını dinlədikdə belə nöqtə tapılmamışdı, hər çıxış məni düşünməyə məcbur edirdi. İndi də həmin çıxışları fikrimdə təkrar edir, analiz edəndən sonra belə qərara gəlirəm ki, onun fəaliyyətini araşdırmaq üçün mütləq vaxt tapmalıyam.

İclasın qərarına görə onun iradəsini sındırmalı, ya da onu nəyə isə məcbur etməliyik. Bu məqsəd üçün Fatı adı ilə məşhur komsomolçu xüsusi öyrədilmiş və komsomolçuların rəhbəri təyin edilmişdi.

Fatının anası erməni, atası isə həmşəridir. Çox gözəldir. Uca qaməti, yaraşıqlı ağ bədəni, cazibədar gözləri nəinki kişiləri, hətta qadınları da dönüb ardınca baxmağa məcbur edir. Səsi məlahətlidir, lakin kinayəli dili zəhər tuluğudur. Onunla həmsöhbət olmuş abırlı şəxs bir də onunla üz-üzə gəlmək istəməz.

Anası deyirmiş ki, onun hamilə olduğundan heç xəbər tutmamış əri İrana qaçıb, buna görə də qızının varlığından xəbərsizdir.

Deyirlər ki, insanın xarici görkəmi onun daxili aləminin görünüşüdür, yəni gözəl insanın daxili aləmi də gözəl olur. Belə isə o, əsl insandır. Lakin təbiətin bu qanunu bütün insanlara aid olmur, belələrindən həyatda nə desən gözləmək olar. Yaradan gözəlliklə yanaşı məkri, xainliyi də Fatıdan əsirgəməmişdi. Gözəlliyi atasından, məkri, xainliyi anasından əxz etmişdi.

On iki yaşı olanda anasının qonaqları tərəfindən aldadılır, sonralar əldən-ələ keçir. İndi on səkkiz yaşı var, çox diribaşdır, danışığında və hərəkətlərində heç kəsdən utanmır, heç nədən çəkinmir. Onu utandıracaq və ya çəkindirəcək abır- həya da yoxdur.

Mir Məmməd Kərimin həyatında maraqlı anlar çox imiş. Onları bir daha xatırlayır, nəyi isə axtarırdım. Onun din və təhsilə münasibətində fanatizm görmürdüm. Hər halda, onun haqqında danışan şəxslərin söhbətlərində buna işarə belə yoxdur. Bir azdan sonra o gətiriləcək, komsomolçuların sualları ilə üz-üzə qoyulacaq. Suallara verəcəyi cavablar, özünü aparması, onun kim olduğunu, daxili aləmini üzə çıxaracaq. Ömrünün təxminən otuz ilini Quranın üçcildlik tərcümə və təfsirinə, Cürci Zeydanın "Misirli gəlin", "Kərbəla yanğısı", "On yeddi ramazan", "Əzrayi-Qüreyş" adlı tarixi romanlarının Azərbaycan dilinə tərcüməsinə həsr etmiş bir şəxsin verəcəyi cavablar çox maraqlı olmalıdır.

...Üçüncü Aleksandrın tacgüzarlıq mərasimində Hacı Zeynalabdin Tağıyev Zaqafqaziya müsəlmanlarının nümayəndəsi kimi iştirak edir. O, müsəlman libasında, ayağında şirazi çarıq, əlində duz-çörək təbrik etmək üçün Çara yaxınlaşır. Gələnləri Çara təqdim etmək üçün sağ tərəfində dayanan şəxs elə zənn edir ki, müsəlmandır, başa düşməz, Hacını belə təqdim edir: " Vaşe veliçestvo, predstavitel dikoqo naroda" – yəni vəhşi xalqın nümayəndəsidir.Tağıyev sakitcə Çara deyir: "Biz vəhşi deyilik, xalqım çoxəsrlik zəngin tarixə malikdir". Həmin dəqiqədən Hacı xalqın təhsili ilə ciddi məşğul olmağa qərar verir.

Qiz məktəbini tikdirir. Mirzə Məhəmməd oğluna külli miqdarda pul verir, Məkkəyə, Mədinəyə, Kərbəlaya, Xorasana, Qahirəyə, İstanbula, Tehrana və digər şəhərlərə göndərir və tapşırır ki, oradakı rəsmi din xadimlərindən, müctəhidlərin hamısından imza və möhürlə təsdiqlənmiş rəsmi sənədlər alsın ki, müsəlman qızları da oğlanlar kimi təhsil ala bilər, bunda heç bir xilaf iş yoxdur.

Mirzə, Hacının tapşırığını yerinə yetirir. Hacı camaatı Təzə Pir məscidinə yığır, fikrini elan edir. Mirzənin gətirdiyi rəsmi sənədləri oxuyurlar. Üç nəfər məşhur din xadimi – Mir Məmməd Kərim, Axund Mirzə Abuturab və Axund Molla Ruhulla qurandan ayələr oxuyur, tərcümə edir, bu xeyirxah işin vacib olduğunu izah edirlər.

Səhəri gün, abır-həya pərdəsi altında çıxış edən islam fanatikləri böyük hay-küy salır, bu işi pozmağa cəhd edirlər. Təhsilin tərəfdarı olan din xadimlərini də təhdid edirlər. İki qızını məktəbə vermiş Axund

Molla Ruhullanın evinə girir, namaz üstündə, səcdəyə gedən vəziyyətdə onu qətlə yetirirlər.

Növbədə Mir Məmməd Kərimin olduğu haqda söz yayırlar ki, o da namaz üstündə, səcdəyə gedən vəziyyətdə qətlə yetiriləcək, həm də əlavə edirlər ki, hələ onun bu yoldan dönməyə imkanı var. Lakin Mir Məmməd Kərimin olduğu yerlərdə həmişə bir neçə qaraguruh şəxs peyda olurdu.

Bir neçə gündən sonra Axund Mir Məmməd Kərim fayton ilə bağa gedirmiş, birdən faytonçunun çox həyəcanlandığını görür. Arxaya baxanda iki nəfərin faytonla onların arxasınca gəldiyini görür. Həmin fayton sürücü ilə bərabarləşəndə: – tələs, namaza az qalır – deyirlər.

Faytonçunu titrətmə tutur. Axundun – nə oldu? – sualına cavab vermək istəyəndə kəkələyir. Bağa bir qədər qalmış, faytonçunu sakitləşdirmək üçün – sür, o biri tində məni gözlə – deyir.

Faytondan düşən Axund Mir Məmməd Kərim piyada, bağa gedən cığır ilə addımlayır. Bir qədər getdikdən sonra dönüb arxaya baxanda həmin iki nəfərin onun ardınca gəldiyini görür. Dayanır, arxadan gələnlər də dayanır və arxalarını çevirirlər.

Axund bağa girir. Həmişə sakit olan iş otaqına daxil olur. Şüşənin arxasına qara pərdə çəkilmiş kitab dolabının qapısı ilə üzbəüz sərilmiş tənbəlitin üstündəki canamazı səliqəyə salır. Əbasını soyunur, əmmaməsini əbanın üstünə qoyur, dəstəmaz almaq üçün evin qabağındakı kiçik hovuzun yanına gedir. Hovuza çatanda ağacın arxasında kölgəni görür. Qurşağını səliqəyə salır, tumarlayır, dəstəmaz almağa başlayır.

Evə girir, namaza dayanır. Birinci səcdəyə gedəndə qapı açılır, evə girən həmin iki şəxsin şüşədə əksini görür. Namaza davam edir, lakin arxadakıların hərəkətlərini şüşədə izləyir.

İkinci səcdəyə getmək istəyəndə arxadakıların tapançaya əl atdıqlarını görür. Səcdəyə gedirmiş kimi əyilərək qurşağındakı tapançanı çıxarır, qoltuğunun altından hər ikisini vurur. Arxaya dönmədən namazına davam edir. Namazdan sonra ayağa duranda güllə səsinə gəlmiş qonşuları görür.

– Gedin, pristava xəbər göndərin, gəlsinlər, bunları buradan aparsınlar – deyir və evdən çıxır.

Güllə səsinə hövlnak özünü həyətə salan faytonçu Mir Məmməd Kərimi sağ-salamat görəndə diz çökür, əllərini göyə qaldırıb dua edir.

Heç kəs bilmirdi ki, Bakıdakı vəziyyəti nəzərə alan Mir Məmməd Kərim uzun illərdir ki, şağ qurşağında daim tapança gəzdirir. Gündə neçə dəfə müxtəlif vəziyyətlərdən sərrast atəş açmaq vərdişi üçün məşq edir. Mir Məmməd Kərimin bu bacarığından iki-üç nəfər yaxın adamının xəbəri varmış. Buna görə onu izləyənləri saya almır, sakitliyini saxlaya bilirdi...

Fatının qəh-qəhəsi məni xəyaldan ayırdı. Mir Məmməd Kərim Fatı ilə üz-üzə dayanmışdı. Fatı Mir Məmməd Kərimi müştəri gözü ilə süzməyə başladı.

Cavanlıq dövrü keçmiş olsa da, onun nurani sifəti, vüqarlı duruşu, deyəsən, Fatını çaşdırmışdı. Burada dayanan din xadimləri ilə həmişə kinayə ilə danışmağa vərdiş etmiş Fatının dodaqlarında və gözlərində qəribə təbəssüm peyda olmuşdu. Onsuz da gözəl olan Fatı daha da cazibədar görünürdü. Nəhayət, Fatı hökm sürən sakitliyi pozdu.

Fatı: – Axund, yəni təsdiq edirsən ki, Allah var?

Axund: – Əlbəttə, inamımı təsdiq edirəm. Mələk simasında xəlq etdiyi məxluq qarşımdadırsa, bu məxluqun xaliqinə necə şübhə edə bilərəm?!

Fatı aldığı cavabdan bir qədər duruxdu. Onun dodaqlarındakı təbəssüm, qəribə baxışlarındakı həlimlik gözlənilməz vəziyyət yaratmışdı.

Mir Məmməd Kərimin sakit görkəmi, mehriban baxışı elə təsəvvür yaradırdi ki, guya nə üçün bura gətirildiyini bilmir, qarşısındakı Fatının və kənarda dayanmış komsomolçuların nəyi gözlədiklərindən xəbəri yoxdur, mehriban baxışlarla gah onları, gah da tamaşaçıları süzürdü.

Mir Məmməd Kərimin sakit duruşu və mehriban baxışları yavaş-yavaş məni də öz təsiri altına alırdı. Sakitliyi Fatının səsi pozdu.

Fatı: – Yəqin cənnət-cəhənnəmə də inanırsan? Cənnətə gedəcəyinə arxayınsanmı?

Axund: – Əlbəttə, arxayınam. Ömrümü bu məqsədə həsr etmişəm. Bilirəm ki, cənnətə gedəcəyəm.

Fatı: – Mən də cənnətə getməyi arzulayıram. Di gəl ki, bu yolun heç bir tələbinə əməl etməmişəm.

Axund: – Allah günahları bağışlayır. Göstərdiyi yola dön, tövbə elə, Allah günahından keçsin. Ümidini üzmə.

Fatı: – Sən Allah adamısan, cənnətə gedəcəksən, məni də özünlə apar.

Axund: – Mümkün deyil. Hər kəsin günahı və savabı yalnız özünə məxsusdur.

Fatı: – Mən səndən əl çəkməyəcəyəm. Sən cənnətə gedəndə ətəyindən bərk-bərk tutacaqam.

Axund: – Mümkün deyil. O dünyaya hamı lüt-madərzad gedir.

Fatı: – Onda əllərindən tutaram.

Axund: – Mümkün deyil. Əllərimi Allah dərgahına qaldırmış vəziyyətdə olacağam.

Fatı: – Hamı sizi ağıllı və tədbirli insan kimi tanıyır. Əgər sizinlə cənnətə getməyimə çarə tapsanız, ağıllı və tədbirli olduğunuzu sübut etsəniz, mən öz yolumdan dönə bilərəm. Əks halda, dininizin və xaliqinizin aciz olduğunu etiraf etməlisiniz.

Bu sözləri deyəndə onun gözlərindəki və dodaqlarındakı təbəssüm yox olmuş, ifadə tərzindəki kinayə bərqərar olmuşdu. Bu isə göstərirdi ki, Fatı yenə Fatı olmuşdur.

Onu dinləyən Mir Məmməd Kərimin baxışları bir an sərtləşdi, lakin danışığına sərt ifadə vermədi.

Axund: – Əgər çıxış yolu tapa bilsəm, söhbətimiz qurtarırmı?

Fatı: – Bəli.

Axund – Çıxış yolu var. Lakin qabiliyyətinə, iradənə şübhə edirəm... Bilmirəm imkanın var, ya yox?

Fatı: – İstədiyimi icra etmək üçün mənə mane ola biləcək heç bir qüvvəni tanımıram, varsa da, mən onu saymıram. Sən de, mən icra edəcəyəm.

Hamı gözləyirdi ki, Mir Məmməd Kərim onu Allah yoluna dəvət edəcək, gələcəkdə cənnətə getməyi üçün zəmanət verəcək. Belə halda, bütün komsomolçular birgə hücuma keçəcək, onu məsxərəyə qoyacaqdılar.

Axund: – Əgər razısansa, onda bil. Mən cənnətə lüt-madərzad gedəndə, əllərimi pərvərdigarın dərgahına qaldıracaq, ona təşəkkür edəcəyəm. Sərbəst bir əzam sallanacaq, bacarsan, ondan yapış, tuta bilsən, bil ki cənnətdəsən.

Zaldan bir uğultu keçdi. Heç kəs belə cavab gözləmirdi. Onun sakit halda verdiyi cavab, sözü qorxmadan, mərdanə üzə deməyi, çətin vəziyyətdə belə cəsarətli olması onun kişi xasiyyətini göstərirdi. Belə insanı sındırmaq mümkün deyil.

Fatı əlini ona təklif edəndə, mən onların arasına girdim, hər ikisinin qolundan tutub apardım...

Xatirə dəftərinin birinci vərəqi yox idi. Axırıncı səhifəni də güclə oxuya bildim. Xatirə dəftəri NKVD* işçisi mayor Hüseyn Quliyevin idi.

Otuz dördüncü ildə Fatı həmin orqanda leytenant rütbəsi alan zaman, mayor Hüseyn Quliyevi güllələyirlər. 1937-ci ildə Mir Məmməd Kərim də "ingilis casusu kimi" güllələnmə cəzasına məhkum edilir və hökm yerinə yetirilir. Axund Molla Şərif Əsirzadə öz əcəli ilə ötən əsrin səksəninci illərində, doxsan altı yaşında vəfat etmişdir. Allah onlara rəhmət eləsin.

**Azərbaycan SSR Daxili İşlər Komissarlığı, xalq arasında rus dilindəki (Народный Комиссариат Внутренних Дел) abreviaturası ilə tanınırdı.*

НОБЕЛЕВСКАЯ ПРЕМИЯ - 2009

НОБЕЛЕВСКАЯ ПРЕМИЯ В ОБЛАСТИ МЕДИЦИНЫ И ФИЗИОЛОГИИ



Elizabeth H. Blackburn



Carol.W. Greider



Jack W.Szostack

Обладателями Нобелевской премии 2009 года в области медицины и физиологии стали трое ученых из США - работающая в США австралийка Элизабет Блекберн (Elizabeth Blackburn), американка Кэрол Грейдер (Carol Greider), а также ее соотечественник Джек Шостак (Jack Szostack). Об этом 5 октября в Стокгольме объявил Нобелевский комитет при Каролинском медицинском институте.

Премия вручается ученым за "за открытие того, как хромосомы защищаются теломерами и ферментом теломеразой".

Теломеры - концевые участки хромосом, которые защищают ее. При каждом делении клетки теломеры укорачивается. Когда теломера "заканчиваются", клетка умирает, что является одним из важнейших механизмов старения организма в целом.

Гипотезу о существовании такого механизма впервые выдвинул в 1971 году советский ученый Алексей Оловников.

Нобелевская премия составляет 10 миллионов шведских крон (около одного миллиона евро). Эта сумма будет разделена поровну между тремя лауреатами.

НОБЕЛЕВСКАЯ ПРЕМИЯ ПО ФИЗИКЕ

6 октября в Стокгольме было объявлено о присуждении Нобелевской премии по физике за 2009 год. Шведская королевская академия наук распределила ее следующим образом: одна половина досталась Чарлзу Као (Charles Kuen Kao) за выдающиеся достижения в области передачи света по стекловолоконным линиям оптической связи; вторую половину разделили Уиллард Бойл (Willard Sterling Boyle) и Джордж Смит (George Elwood Smith) за разработку светочувствительной полупроводниковой микросхемы - CCD-сенсора.



Charles Kuen Kao | Willard Sterling Boyle | George Elwood Smith

Все трое лауреатов уже давно на пенсии. Самому молодому из них - Чарлзу Као - 76 лет. Он родился в 1933 году в Китае, в Шанхае. В 1948 году семья перебралась в Гонконг, тогдашний британский протекторат. Као закончил Политехнический институт (ныне Гринвичский университет) в Великобритании по специальности "Электротехника", затем работал в компании Standard Telephones and Cables, а позднее возглавил ее научно-исследовательский центр Standard Telecommunications Laboratories в Харлоу, Ан-

глия. В 1965 году Као защитил докторскую диссертацию в Королевском колледже науки, техники и медицины, входящем в состав Лондонского университета. Годом позже он выполнил те самые работы, за которые теперь, 43 года спустя, удостоился Нобелевской премии. Позднее ученый занимал должность проректора Китайского университета в Гонконге, а также возглавлял ряд промышленных компаний. Он и сегодня руководит фирмой ITX Services. У Чарлза Као двойное гражданство - британское и китайское.

Американец Джордж Смит на три года старше Као. Он родился в 1930 году в США, в Уайт-Плейнз, штат Нью-Йорк, в 1955 году закончил Пенсильванский университет в Филадельфии, а в 1959 году защитил докторскую диссертацию в Чикагском университете. Сразу после защиты поступил в Лабораторию Белла - научно-исследовательский центр компании Bell Telephone в Мюррей-Хилл, штат Нью-Джерси, - где и проработал до самого выхода на пенсию в 1986 году. Там ученый занимался исследованиями в области полупроводниковой и лазерной техники и долгие годы возглавлял отдел микросхем сверхбольшой степени интеграции. Работы, удостоенные теперь Нобелевской премии, Смит выполнил в 1969 году совместно со своим коллегой Уиллардом Бойлом.

Уиллард Бойл - самый старший из тройки новоиспеченных нобелевских лауреатов: ему 85 лет. Он родился в 1924 году в Канаде, в Амхерсте (провинция Новая Шотландия). Во время Второй мировой войны служил во флоте, однако участия в активных боевых действиях не принимал. В 1948 году Бойл закончил университет Макгилла в Монреале, в 1950 году там же защитил докторскую диссертацию. После этого он год проработал в Канадской радиационной лаборатории, затем еще два года преподавал физику в Королевском военном колледже. В 1953 году Бойл поступил на работу в Лабораторию Белла, где принял участие в конструировании первого рубинового лазера с непрерывным режимом излучения. В 1962 году Бойл возглавил отдел космических исследований в компании Bellcomm - дочернем предприятии Лаборатории Белла - и активно участвовал в подготовке ряда программ НАСА, включая программу Apollo. Двумя годами позже Бойл вернулся в Лабораторию Белла, где и проработал до 1979 года, причем последние 4 года руководил всеми исследовательскими программами компании. После выхода на пенсию Бойл вернулся на родину, где до сих пор является членом ученого совета Канадского института перспективных исследований и совета по науке провинции Новая Шотландия. Он обладатель канадского и американского паспортов.

НОБЕЛЕВСКАЯ ПРЕМИЯ ПО ХИМИИ

Нобелевская премия по химии присуждена троим ученым из Великобритании, США и Израиля "за исследования структуры и функции рибосомы", считывающей информацию с ДНК и синтезирующей белки. Об этом 7 октября в Стокгольме объявила Королевская шведская академия наук.



Venkatraman Ramakrishnan



Thomas A.Steitz



Ada E.Yonath

Премию разделят между собой трое ученых - Венкатраман Рамакришнан (Venkatraman Ramakrishnan) из Лаборатории молекулярной биологии в британском Кембридже, Томас Стайц (Thomas Steitz) из Йельского университета (США) и Ада Йонат (Ada Yonath) из Института Вейцмана (Израиль).

"Нобелевская премия по химии 2009 года присуждена за исследования, которые являются важными для основных процессов жизнедеятельности. Рибосома считывает информацию, записанную в ДНК. Рибосома производит белки, которые, в свою очередь, контролируют химические процессы во всех живых организмах. Так как рибосома имеет решающее значение для жизни, они также являются мишенью для новых антибиотиков", - говорится в сообщении для прессы, распространенном Королевской академией.

Председатель Нобелевского комитета по химии Гуннар фон Хеййне, комментируя журналистам присуждение премии, в частности, сказал, что все трое лауреатов друг с другом не сотрудничали, однако, они пришли к одним и тем же результатам."Можно сказать, что между ними было больше дружеской конкуренции, чем сотрудничества", - сказал он.

НОБЕЛЕВСКАЯ ПРЕМИЯ ПО ЛИТЕРАТУРЕ

Немецкая писательница Герта Мюллер стала обладателем Нобелевской премии по литературе в 2009 году, сообщил 8 октября в Стокгольме Петер Энглунд, постоянный секретарь Шведской академии, ежегодно называющей имя лауреата. "Поэтичность и откровенность в прозе, отображающей жизнь обездоленных". Так обосновал свое решение Нобелевский комитет в Стокгольме. По словам Мюллер, это для нее большой сюрприз. "Я никак не могу в это поверить, знаю, но до сих пор не верю. В голове как-то не укладывается".

Герта Мюллер (Herta Mueller) - немецкая писательница, родилась (1953) и прожила первую половину жизни в немецкоязычном Банате, в Румынии.


Herta Mueller

Изучала германистику и романистику, работала учительницей немецкого языка, переводчицей на заводе, воспитательницей в детском саду. Из-за политических преследований в 1987 году эмигрировала в Германию, живет в Берлине. "Я жила в условиях диктатуры более 30 лет. Меня вынудили уехать. Диктатура же пала спустя 3 года. И это было счастьем".

Уже первые рассказы Мюллер, вошедшие в сборник "Низины" (Бухарест, 1982), заметили критики. Эти произведения также были отмечены румынскими и немецкими литературными премиями. В Германии выходят ее новые книги: сборник рассказов "Босоногий февраль" (1987), повесть "Дьявол пребывает в зеркале" (1991), роман "Лиса тогда уже была охотником" (1992), сборник эссеистики "Голод и шелк" (1995) и другие.

Мюллер - автор 18 романов и повестей. Лауреат более 20 престижных литературных наград, среди них - Берлинская, Дублинская и Бременская, а также премия города Граца, премия имени Кафки, награда имени Кляйста и множество других. Книги писательницы переведены на более чем 20 языков мира, в том числе на китайский, турецкий, испанский.

По словам шведских критиков, имя лауреата этого года для них не стало неожиданностью. Одной из главных тем творчества Герты Мюллер они называют попытку писательницы исследовать жизнь человека в условиях диктатуры, условиях тоталитаризма, испытание людей страхом и насилием.

Писательницу поздравила канцлер ФРГ Ангела Меркель: "Сейчас, 20 лет спустя после падения Берлинской стены, это прекрасный знак. Нобелевской премией отмечена великолепная литература и жизненный опыт писательницы".

НОБЕЛЕВСКАЯ ПРЕМИЯ МИРА


Barack Obama

Президент США Барак Обама стал лауреатом Нобелевской премии мира за 2009 год. Награда присуждена ему с формулировкой "за огромные усилия по укреплению международной дипломатии и сотрудничества между народами".

Барак Обама - 44-й президент США (вступил в должность в январе 2009 года) и первый афроамериканец на этом посту. Возглавив Соединенные Штаты, он пообещал отказаться от прежней односторонней внешней политики и выразил готовность заботиться об интересах не только США, но и всех стран мира. Он, кроме того, заявил, что готов к переговорам с такими странами как Иран, с которым США уже тридцать лет не поддерживают дипломатические отношения. Одним из важнейших пунктов его предвыборной программы было завершение военной кампании в Ираке и вывод оттуда американских войск.

НОБЕЛЕВСКАЯ ПРЕМИЯ ПО ЭКОНОМИКЕ

Премия памяти Нобеля по экономике за 2009 год присуждена двум американским ученым Элинор Остром (Elinor Ostrom) и Оливеру Уильямсону (Oliver Williamson) за исследования в области экономического управления, объявила 12 октября в Стокгольме Королевская шведская академия наук

Темы, за разработку которых присудили премию Нобеля по экономике, сегодня весьма актуальны - экономические институты определяют тактику борьбы с кризисом, а исследования в области управления собственностью важны, поскольку все больше активов оказывается в руках государства, считают опрошенные эксперты, отмечая, что время получать награды за нынешние антикризисные меры еще не пришло.



Elinor Ostrom



Oliver E. Williamson

Остром оспаривает распространенную точку зрения о том, что общественная собственность должна либо управляться централизованно, либо быть приватизирована. Уильямсон рассматривает отдельные организации как институты управления, каждый с индивидуальным подходом к разрешению конфликтов интересов.

Торжественная церемония награждения Нобелевскими премиями состоится 10 декабря, в день смерти Альфреда Нобеля.

НОБЕЛЕВСКАЯ ПРЕМИЯ- ИСТОРИЯ

Нобелевская премия (швед. Nobelpriset, англ. Nobel Prize) - одна из наиболее престижных международных премий, присуждаемая за выдающиеся научные исследования, революционные изобретения или крупный вклад в культуру или развитие общества.Нобелевские премии учреждены в соответствии с завещанием Альфреда Нобеля. Завещание Нобеля, составленное в 1895 году, предусматривало выделение средств на награды представителям следующих пяти направлений:литература;физика; химия; физиология и медицина; содействие установлению мира во всем мире.

В 1900 году был создан Фонд Нобеля - частная независимая неправительственная организация с начальным капиталом 31 млн шведских крон (в нынешних ценах эта сумма эквивалентна примерно 1,5 млрд крон). Первые премии составляли 150 000 крон. В настоящее время капитал фонда равен 2 млрд 966 млн шведских крон (примерно 450 млн $ США), а размер премии составляет 10 млн крон. С 1969 года по инициативе Шведского банка присуждаются также премии по экономике. В дальнейшем Фонд Нобеля решил не увеличивать число номинаций.От лауреата требуется выступление с так называемой «Нобелевской мемориальной лекцией», которая публикуется затем Нобелевским фондом в особом томе.

НОБЕЛЕВСКИЙ КОНЦЕРТ

Нобелевский концерт - одна из трёх составляющих нобелевской недели наравне с вручением премий и нобелевским ужином. Считается одним из главных музыкальных событий года европейских и главным музыкальным событием года скандинавских стран. В нём принимают участие самые видные классические музыканты современности.

Подготовка к этому мероприятию начинается за несколько месяцев. Время проведения всех торжеств - первая половина декабря. Торжества проводятся в Стокгольме (кроме вручения премии мира).

Экспертом Нобелевского концерта является знаменитый шведский скрипач и музыковед российского происхождения Михаил Казиник

Нобелевский концерт транслируют по нескольким международным телеканалам.

USAQ DÜNYASI

"Xəzər Xəbər" toplusunun məktəblilər üçün əlavəsi

BİZ SİZİN SAYƏNİZDƏ QALXIRIQ ZİRVƏLƏRƏ

Hər bir sənətin öz gözəlliyi, öz özəlliyi var. Amma dünyada bir sənət var ki, onu başqa peşələrlə müqayisə etmək olmaz! Müəllim sənəti!

Hər bir insanın "müəllim" deyə müraciət etdiyi və ömür boyu xüsusi hörmətlə andığı bir şəxs var desək, səhv etmərik. Bax, elə Oktyabr ayının 5-i onların günüdür – Beynəlxalq Müəllim günüdür!

Müəllimlərimizi "Dünya" məktəbinin VII[b] sinif şagirdi Esmiralda Şirinovanın sözləri ilə təbrik etmək istəyirik:

"Hər kəsə bəllidir ki, insan Allahın hökmü ilə dünyaya gəlir, valideynlərinin zəhməti ilə boya-başa çatır. Lakin həyatda qazanacağı mövqeyi ona dərs deyən müəllimlərin peşəkarlığı və qayğısı müəyyən edir. Bu kiçik "Dünya"nın sinif otaqlarında bizə böyük dünyamızın hər sirrini, Vətəni, İnsanlığı və Bəşəriyyəti sevməyi öyrədən əziz müəllimlərimiz! Bayramınız mübarək!"



Müəllimlik peşəsi – hər peşədən uludur,
Müəllimlərin işi – uğurların yoludur!
Biz Sizin sayənizdə qalxırıq zirvələrə,
Təşəkkürlər deyirik hər gün, hər an Sizlərə!

MƏKTƏBƏ GEDİRƏM MƏN DƏ BU İLDƏN...

Yeni tədris ili başladı. Bu dəfə də məktəbimizin kiçik sakinləri birincilər əllərində gül dəstələri məktəbə daxil oldular və sinif otaqlarında əyləşərək, kiçik barmaqları ilə hərfləri, rəqəmləri yazmağı öyrənməyə başladılar. Balacalardan



ikisi bu gün mənim qonağımdır. Özləri boyunlarına almadılar, amma mən onların dəcəl olduqlarını qısa müddətdə başa düşdüm: stulda rahat otura bilməyən, fikirləri kitabxanadakı rəngli kitablarda qalan bu iki balaca dəcəli – Rouşən və Elvini yaman sevdim.

Otaga girən kimi Rouşənin mənə ilk sualı belə oldu:

– Biz niyə gəldik?

– Salam, uşaqlar! Hər ikinizi buraya dəvət etməkdə məqsədim sizinlə yaxından tanış olmaqdır. Uşaqlar, bağçaya getmisiniz?

Elvin: Yox.

Rouşən: Mən "Ulduz" bağçasına getmişəm. Bağçanın yanında park da var idi...

– Bəs bizim məktəbi necə, sevdiniz?

Hər ikisi məktəbimizi çox sevdiklərini söylədilər.

– Evə gedəndə məktəbdə baş verənləri valideynlərinizə danışırsınız?

Elvin: Mən anama hər şeyi deyirəm. Atama isə yox, çünki çox vaxt evdə olmur.

Rouşən: Anama aldığım qiymətləri göstərirəm. Anam da mənə "afərin" deyir.

– Uşaqlar, yəqin ki, zooparka çox getmisiniz. Zooparkda ən çox sevdiyiniz heyvan hansıdır?

Elvin: Mən meymunu çox sevirəm. Çünki meymun adamı güldürə bilir.

Rouşən: Şiri sevirəm. Çünki şirin saçları qəşəng olur. Həm də o, yaxşı ov ovlamağı bacarır.

– Sizcə, qəhrəman kimə deyilir?

Rouşən: Güclü, savadlı insana qəhrəman deyilir. Məktəbdə yeməklərimi həmişə sona qədər yeyirəm ki, mən də güclü ola bilim.

Elvin: Başqalarını qoruyan, savadlı və pulu çox olan insana qəhrəman deyilir. Mən gərək çoxlu idman edim ki, güclü ola bilim.

– Uşaqlar, göydə nə zaman şimşək çaxır?

Elvin: Yağış yağanda...

Rouşən: Şimşək kənddə çaxır, şəhərdə yox...

– Böyüyəndə hansı sənəti seçmək istəyirsiniz?

Uşaqların hər ikisi polis olmaq istədiklərini bildirdilər. Səbəbini soruşanda təəccüblənmədim. Birinin atası, digərinin babası polis imiş.

– Polislər insana niyə lazımdı?

Elvin: Polis şəhərdə qayda yaradır. Qoymur ki, insanlar maşını möhkəm sürsünlər...

Rouşən: Mən də belə düşünürəm. Polislər sürücüləri sürətlə sürməyə qoymurlar. Sürətlə sürəndə maşının nömrəsini alırlar axı?! Sonra nömrəni geri almağa pul lazım olur..

– Bəs müəllimlər insanlara nəyə görə lazımdırlar?

Elvin: Müəllim olmasa, insanlar savadlı olmazlar...



Rouşən: Savadlı və güclü olmağı insana müəllim öyrədir, ona görə də müəllim hamıya lazımdı!

– Uşaqlar, sizə Yer kürəsini – planetimizi rəngləməyi tapşırsalar hansı rənglərə üstünlük verərdiniz?

Rouşən: Ağ - parıltılı rənglərlə ulduzları bəzəyərdim. Sarı, yaşıl, qırmızı rənglərlə başqa şeyləri bəzəyərdim...

Elvin: Suyu mavi çəkərdim, ulduzu sarı, ağacları isə yaşıl çəkərdim. Və deyərdim ki, baxın, bizim yaşadığımız evimiz buradır.

Uşaqlarla söhbətim xeyli uzandı. Balaca müsahiblərim yaman söhbətcilmişlər. Inanıram ki, siz də onları sevdiniz.

Mədinə RZAYEVA

AZƏRBAYCAN NAĞILLARI

İT VƏ İNSAN

Biri var idi, biri yox idi. Qədim zamanlarda bir it var idi. Bu it tək-tənha meşədə yaşayırdı. Az keçdi, çox keçdi, it tək yaşamaqdan təngə gəldi, özünə bir yoldaş axtarmağa başladı. İt elə bir dost axtarırdı ki, o, dünyada hamıdan güclü olsun, heç nədən qorxmasın.

İtə elə gəlirdi ki, dünyada hamıdan güclü bircə qurddur, ondan güclüsü yoxdur. O, qurdun yanına gəlib dedi:

- Ay qurd, gəl dost olaq, bir yerdə yaşayaq.

Qurd razılıq verdi. Həmin gündən onlar bir yerdə, dost kimi yaşamağa başladılar.

Günlərin bir günündə, gecə it meşədə səs eşidib hürməyə başladı. Qurd yazıq-yazıq dedi:

-Ay it, hürmə! Səs salıb dünyanı oyadarsan, ayı gəlib səni də, məni də parçalar.



Bu sözlər iti bir qədər düşündürdü. O öz-özünə dedi: "Aha... indi ki, qurd ayıdan belə qorxur, deməli ayı dünyada hamıdan güclüdür".

İt qurddan ayrıldı. Meşədə ayını axtarmağa getdi.

Onu tapıb dedi:

- Ayı qardaş, gəl dost olaq, bir yerdə yaşayaq. Ayı razılıq verdi:

- Deyirsən birgə yaşayaq, yaşayaq da.

Həmin gündən itlə ayı dostlaşdılar və birgə yaşamağa başladılar. Bir müddət keçdi. Günlərin bir günündə gecə vaxtı it səs eşidib hürməyə başladı. Ayı qorxdu və dedi:

-Ay it, səsini kəs! Şir eşidər, gəlib səni də, məni də yeyər.

İt öz-özünə düşündü: "İndi ki, ayı şirdən belə qorxur, deməli, o hamıdan güclü deyilmiş. Dünyada hamıdan güclü şir imiş". İt şiri axtarmağa getdi. Onu tapıb dedi:

-Ay şir, gəl sənlə bir yerdə yaşayaq. Şir razılıq verdi.

Həmin gündən onlar bir yerdə yaşamağa başladılar.

Günlər keçdi, həftələr ötdü, bir gün gecə vaxtı it hürdü. Şir ona dedi:

- Ay it, hürmə! İnsan eşidər, əlində qorxulu tüfəng gəlib səni də, məni də öldürər.

İt yenə öz-özünə fikirləşdi: "Deyəsən, dünyada hamıdan güclüsü şir deyilmiş". İt insanı tapıb dedi:

- Ay insan, gəl sənlə dost olaq, bir yerdə yaşayaq.

İnsan razılaşdı. Onlar bir yerdə, iki dost kimi yaşamağa başladılar. Bir müddət keçdi. Günlərin bir günündə gecə yarısı it səs eşidib hürdü. İnsan yuxudan ayıldı. İti sakit etməkdənsə onun üzərinə çığırdı:

- Ay it, tut onu!.. Tut onu!..

Bundan sonra it inandı ki, insan heç nədən qorxmur. İnsan hamıdan qüvvətlidir. O gündən it insandan ayrılmır.

OXUCULARIN NƏZƏRİNƏ!

"XƏZƏR XƏBƏR" JURNALINA 2010-cu İL ÜÇÜN ABUNƏ ELANI

Əziz oxucular!

"Xəzər Xəbər" jurnalı yeni ildə sizin görüşünüzə yeni həcmdə və yeni görkəmdə gələcək. Jurnalın dövriliyi də dəyişəcək.

"Xəzər Xəbər" jurnalı ayda bir dəfə (avqust ayından başqa) 80 səhifə həcmində və rəngli çıxacaq.

"Xəzər Xəbər" jurnalında siz yenə Azərbaycan, türk, rus və ingilis dillərində maraqlı xəbərlər, təhsil yenilikləri və tələbə həyatına, mədəniyyət, turizm və idmana aid yazılar, orijinal bədii əsərlər oxuya biləcəksiniz.

"Xəzər Xəbər" jurnalına 2010-cu il üçün aşağıdakı ünvanlarda abunə yazılmaq olar:

- *"Azərpoçt" MMC-nin Bakı Mərkəzi poçtu (Üzeyir Hacıbəyov küçəsi, 36), tel.: 493-33-66*
- *1 saylı poçt (İstiqlaliyyət küçəsi, 35, İçərişəhər metrosu, İqtisadiyyat Universiteti ilə üzbəüz), Tel.: 492-58-40*
- *"Qasid" Açıq Səhmdar Cəmiyyəti (5-ci mikrorayon, Cavad xan küçəsi, 21, Memar Əcəmi metrosunun yanı, tel.: 493-14-06; 493-16-43*

2010-cu ilin yanvar ayından etibarən "Xəzər Xəbər" jurnalını pərakəndə satışda "Metro-Servis" MMC-nin Bakı metropoliteni stansiyalarındakı köşklərindən ala bilərsiniz.

"Xəzər Xəbər"ə abunə yazılın!
"Xəzər Xəbər"i oxuyun!
"Xəzər Xəbər"ə yazın!

KHAZAR VIEW

XƏZƏR

XƏBƏR